# İKİNCİ PADŞAHLAR KİTABI

## GİRİŞ

*«2 Padşahlar»* Kitabı Yəhuda və İsrail padşahlıqlarının tarixini davam etdirir.

Kitabdakı hadisələr miladdan əvvəl IX əsrin ortalarından 586-cı ildə Yəhuda padşahlığının süqutuna qədər olan dövrü əhatə edir. Kitabda həmçinin 722-ci ildə İsrail padşahlığının süqutu təsvir edilir.

Yəhuda və İsrail padşahları ilə xalqın Allaha sədaqətsizliyi üzündən millətin başına bu bəlalar gəlmişdi. Yerusəlimin dağıdılması və Yəhuda xalqının əksəriyyətinin sürgün edilməsi İsraillilərin tarixində ən mühüm hadisələrdən biridir.

*«2 Padşahlar»* Kitabında İlyasın ardıcılı olan Elişa Rəbb tərəfindən peyğəmbərliyə seçilir.

**Kitabın məzmunu**

1:1–17:41 Bölünmüş padşahlıq
- 1:1–8:15 Elişa peyğəmbər
- 8:16–17:4 Yəhuda və İsrail padşahları
- 17:5-41 Samariyanın süqutu

18:1–25:30 Yəhuda padşahlığı
- 18:1–21:26 Xizqiyadan Yoşiyaya qədər olan dövr
- 22:1–23:30 Yoşiyanın hökmranlıq etməsi
- 23:31–24:20 Yəhudanın axırıncı padşahları
- 25:1-30 Yerusəlimin süqutu

## *Rəbbin padşah Axazyanı cəzalandırması*

1 İsrail padşahı Axavın ölümündən sonra Moav
İsrailə qarşı üsyan qaldırdı.
2 Padşah Axazya Samariyada olan yuxarı
otağındakı barmaqlığı olan pəncərədən yıxılıb
yaralandı. O, qasidlərinə «Gedin, Eqron allahı
Baal-Zevuvdan* soruşun, bu yaram sağalacaqmı?»
deyib onları göndərdi.
3 Rəbbin mələyi Tişbeli İlyasa dedi: «Qalx
Samariya padşahının qasidlərini qarşılamaq üçün
çıx və onlara de: "İsraildə Allah yoxdur ki, Eqron
allahı Baal-Zevuva müraciət etməyə gedirsiniz?"
4 Buna görə də Rəbb belə deyir: "Üstündə
uzandığın yataqdan qalxa bilməyəcəksən, çünki
hökmən öləcəksən!"» İlyas getdi.
5 Qasidlər padşahın yanına qayıtdılar. Padşah
onlara dedi: «Niyə geri qayıtdınız?»
6 Ona dedilər: «Bir adam bizi qarşılamağa çıxdı və
bizə dedi: "Sizi göndərən padşahın yanına qayıdıb
ona söyləyin ki, Rəbb belə deyir: ‹İsraildə Allah yox-
dur ki, Eqron allahı Baal-Zevuva müraciət etmək
üçün qasidlər göndərdin?› Buna görə də üstündə
uzandığın yataqdan qalxa bilməyəcəksən, çünki
hökmən öləcəksən!"»
7 Padşah onlara dedi: «Sizi qarşılamağa çıxan və
sizə bu sözləri söyləyən adam nə qiyafədə idi?»
8 * Ona dedilər: «Tüklü bir adam idi, belinə
dəri qurşaq bağlamışdı». Padşah dedi: «O, Tişbeli

---

* **1:2** *Baal-Zevuv* – ibrani dilində *milçəklərin ağası* mənasında olub İsraillilərin Baal-Zevul (yüksək yerin ağası) adlı bir Filişt bütünə verdikləri addır. * **1:8** Mat. 3:4; Mark 1:6

İlyasdır».
9 Padşah bir əllibaşı ilə əlli adamını İlyasın yanına
göndərdi. Əllibaşı onun yanına qalxdı. İlyas təpənin
başında oturmuşdu. Əllibaşı ona dedi: «Ey Allah
adamı, padşah "aşağı düş" deyir».
10 * İlyas əllibaşıya cavab verib dedi: «Əgər mən
Allah adamıyamsa, göydən od yağsın, səni və əlli
adamını tələf etsin!» Onda göydən od yağdı, əllibaşı
ilə əlli adamını tələf etdi.
11 Padşah başqa bir əllibaşı ilə əlli adamını onun
yanına göndərdi. Əllibaşı ona dedi: «Ey Allah
adamı, padşah belə deyir: "Tez aşağı düş"».
12 İlyas onlara cavab verib dedi: «Əgər mən
Allah adamıyamsa, göydən od yağsın, səni və əlli
adamını tələf etsin!» Onda göydən Allahın odu
yağdı, əllibaşı ilə əlli adamını tələf etdi.
13 Padşah yenə üçüncü bir əllibaşı ilə əlli adamını
göndərdi. Üçüncü əllibaşı qalxıb gəldi, İlyasın
qarşısında diz çökdü və ona yalvarıb dedi: «Ey Allah
adamı, xahiş edirəm, mənim və bu əlli qulunun
canına yazığın gəlsin.
14 Göydən od yağıb əvvəl gələn iki əllibaşını və on-
ların hərəsinin əlli adamını tələf etdi. İndi mənim
canıma yazığın gəlsin».
15 Rəbbin mələyi İlyasa dedi: «Onunla birgə aşağı
düş, ondan qorxma». İlyas qalxıb aşağı düşdü və
əllibaşı ilə birgə padşahın yanına gəldi.
16 Ona dedi: «Rəbb belə deyir: "İsraildə sözünü
soruşmağa Allah yoxdur ki, Eqron allahı Baal-
Zevuvdan soruşmaq üçün qasidlər göndərdin?

* **1:10** Luka 9:54

Buna görə də üstündə uzandığın yataqdan qalxa bilməyəcəksən, çünki hökmən öləcəksən!”»
17 İlyasın söylədiyi Rəbbin sözünə görə Axazya
öldü. Oğlu olmadığı üçün yerinə Axavın oğlu Yehoram padşah oldu. Bu da Yəhuda padşahı Yehoşafat oğlu Yehoramın padşahlığının ikinci ilində oldu.
18 Axazyanın qalan işləri İsrail padşahlarının salnamələr kitabında yazılmışdır.

# 2

*İlyasın göyə aparılması*

1 Rəbb İlyası qasırğa ilə göyə qaldırmazdan əvvəl
İlyas və Elişa Qilqaldan getdilər.
2 Onda İlyas Elişaya dedi: «Burada qal, çünki Rəbb
məni Bet-Elə göndərir». Elişa dedi: «Var olan Rəbbə və sənin canına and olsun ki, səndən əl çəkmərəm». Onlar Bet-Elə getdilər.
3 Bet-Eldə olan peyğəmbərlər Elişanın yanına
gəlib ona dedilər: «Rəbbin bu gün sənin ağanı başının üstündən götürəcəyini bilirsənmi?» O dedi: «Bəli, bilirəm, susun».
4 İlyas ona dedi: «Elişa, burada qal, çünki Rəbb
məni Yerixoya göndərir». Elişa dedi: «Var olan Rəbbə və sənin canına and olsun ki, səndən əl çəkmərəm». Onlar Yerixoya gəldilər.
5 Yerixoda olan peyğəmbərlər Elişanın yanına
gəlib ona dedilər: «Bilirsənmi, Rəbb bu gün ağanı sənin başın üstündən götürəcək?» O dedi: «Bəli, bilirəm, susun!»
6 İlyas ona dedi: «Burada qal, çünki Rəbb məni
İordan çayının yanına göndərir». Elişa dedi: «Var

olan Rəbbə və sənin canına and olsun ki, səndən əl
çəkmərəm». Onlar getdilər.
7 Peyğəmbərlərdən əlli adam gedib uzaqda on-
ların qarşısında dayandı. Onlar da İordan çayının
yanında dayandılar.
8 İlyas cübbəsini götürdü və onu büküb suya
vurdu. Su iki yerə ayrıldı və onlar quru yerin
üstündən keçdilər.
9 * Onlar keçəndən sonra İlyas Elişaya dedi: «Mən
sənin yanından götürülməzdən əvvəl məndən bir
şey istə, sənin üçün nə edim?» Elişa dedi: «Qoy indi
səndə olan ruh ikiqat artıq məndə olsun».
10 İlyas dedi: «Sən çətin bir şey istədin. Əgər
sənin yanından götürüldüyümü görsən, səninlə belə
olacaq, yoxsa bu olmayacaq».
11 Onlar danışa-danışa gedərkən qəflətən odlu bir
araba və odlu atlar göründü, onları bir-birindən
ayırdı və İlyas qasırğa ilə göyə qaldırıldı.
12 * Elişa bunu görüb qışqırdı: «Atam, ey
atam! İsrailin arabası və atlıları!» O, İlyası daha
görməyəndə öz paltarını götürdü və onu cırıb iki
yerə böldü.
13 Sonra İlyasın əynindən düşən cübbəni götürüb
geri döndü və İordan çayının sahilində dayandı.
14 İlyasın əynindən düşən cübbəni götürüb suya
vurdu və dedi: «İlyasın Allahı Rəbb haradadır?» O
da cübbəni suya vuranda su iki yerə ayrıldı. Elişa
oradan keçdi.
15 Yerixoda olan peyğəmbərlər onu uzaqdan
görüb dedilər: «İlyasın ruhunun gücü Elişanın

* **2:9** Qanun. 21:17 * **2:12** 2Pad. 13:14

üstünə qondu». Onlar Elişanı qarşılamağa gələrək
önündə yerə qədər təzim etdilər.
16 Ona dedilər: «Bu qullarının yanında əlli igid
var, qoy gedib ağanı axtarsınlar. Bəlkə Rəbbin
Ruhu onu qaldırıb dağların yaxud da dərələrin
birinə atmışdır?» Elişa dedi: «Göndərməyin».
17 Amma onlar o qədər inad etdilər ki, Elişa
utanıb dedi: «Göndərin». Əlli nəfər göndərdilər
və onlar üç gün axtardılar, ancaq İlyası tapa
bilmədilər.
18 Sonra Yerixoda qalan Elişanın yanına
qayıtdılar. Elişa onlara dedi: «Mən sizə demədim
ki, getməyin?»

### *Elişanın suyu pak etməsi*

19 Şəhərin adamları Elişaya dedilər: «Ağamın
gördüyü kimi bu şəhərin yeri yaxşıdır, ancaq suyu
pisdir, torpağı bəhər vermir».
20 O dedi: «Mənə təzə bir qab gətirin və onun içinə
duz qoyun». Bunu ona gətirdilər.
21 O, bulağa çıxdı, duzu oraya atıb dedi: «Rəbb
belə deyir: “Bu suları pak edirəm, artıq onda ölüm
və bəhərsizlik olmayacaq”».
22 Elişanın söylədiyi sözə görə bu su indiyə qədər
də pak qalır.

### *Elişanı lağa qoyan oğlanlar*

23 Elişa oradan Bet-Elə qalxdı. O, yola düşəndə
kiçik oğlanlar şəhərdən çıxdılar və onu lağa qoyub
dedilər: «Rədd ol, keçəl, rədd ol, keçəl!»
24 O arxaya dönüb oğlanları gördü və onları
Rəbbin adı ilə lənətlədi. Meşədən iki dişi ayı çıxıb
onlardan qırx iki nəfəri parçaladı.

25 Elişa oradan Karmel dağına getdi, oradan da
Samariyaya qayıtdı.

# 3

## *İsrail padşahı Yehoram*

1 Yəhuda padşahı Yehoşafatın padşahlığının on
səkkizinci ilində Axav oğlu Yehoram Samariyada
İsrail üzərində padşah oldu və on iki il padşahlıq
etdi.
2 O, Rəbbin gözündə pis olan işlər etdi, ancaq atası və anası kimi deyildi, çünki atasının
düzəltdiyi Baal sütununu yox etdi.
3 Ancaq Nevat oğlu Yarovamın İsrailə etdirdiyi
günahlardan yapışdı, onlardan əl çəkmədi.

## *Moavlıların üsyan qaldırması*

4 Moav padşahı Meşanın sürüsü var idi. O, İsrail
padşahına yüz min quzu və yüz min qoçun yununu
göndərərdi.
5 Axavın ölümündən sonra Moav padşahı İsrail
padşahına qarşı üsyan qaldırdı.
6 O vaxt padşah Yehoram Samariyadan çıxdı və
bütün İsraillilər topladı.
7 O gedəndə Yəhuda padşahı Yehoşafata xəbər
göndərib dedi: «Moav padşahı mənə qarşı üsyan
qaldırdı. Moavlılara qarşı vuruşmaq üçün mənimlə
birgə gedərsənmi?» Yehoşafat dedi: «Gedərəm,
məni özün kimi, xalqımı xalqın kimi, atlarımı atların kimi hesab elə».
8 Yehoram dedi: «Hansı yolla çıxaq?» O dedi:
«Edom çölünün yolu ilə».

9 İsrail padşahı, Yəhuda padşahı və Edom padşahı
gedib o yolu yeddi gün dolaşdılar. Əsgərlər və
dallarınca gələn heyvanlar üçün su yox idi.
10 İsrail padşahı dedi: «Ay aman! Rəbb bu üç
padşahı Moavlılara təslim etmək üçün bir yerə
çağırıb».
11 Yehoşafat dedi: «Burada Rəbbin bir peyğəmbəri
yoxdur ki, onun vasitəsilə Rəbdən soruşaq?» İsrail
padşahının əyanlarından biri cavab verib dedi:
«Şafat oğlu Elişa buradadır. O, İlyasın əlinə su
tökərdi».
12 Padşah Yehoşafat dedi: «Onda Rəbbin sözü
var». Sonra İsrail padşahı, Edom padşahı və
Yehoşafat Elişanın yanına enib getdilər.

13 Elişa İsrail padşahına dedi: «Məndən sənə nə?
Öz ata-ananın peyğəmbərlərinin yanına get». İsrail
padşahı ona dedi: «Yox! Bu üç padşahı Moavlılara
təslim etmək üçün Rəbb bir yerə çağırıb».
14 Elişa dedi: «Önündə durduğum var olan
Ordular Rəbbinə and olsun ki, Yəhuda padşahı
Yehoşafata hörmət etməsəydim, sənin üzünə bax-
mazdım.
15 İndi mənim yanıma çəng çalan bir adam
gətirin». Gətirilən adam çəng çalarkən Rəbbin əli
Elişanın üzərinə gəldi.
16 O dedi: «Rəbb belə deyir: “Bu vadinin hər
tərəfində xəndəklər qazın”.
17 Çünki Rəbb belə deyir: “Siz külək və yağış
görməyəcəksiniz, amma bu vadi su ilə dolacaq.
Siz, mal-qaranız və heyvanlarınız doyunca su
içəcəksiniz”.

18 Bu, Rəbbin gözündə çox asan bir şeydir. O,
Moavlıları da sizə təslim edəcək.
19 Bütün qalalı şəhərləri və seçmə şəhərləri
dağıdacaqsınız, hər yaxşı ağacı kəsəcəksiniz, bütün
bulaqların gözünü tutacaqsınız və hər yaxşı tarlanı
daşlarla dolduracaqsınız».
20 Ertəsi gün səhər təqdim gətirilən zaman birdən
Edom yolundan su gəldi və torpaq su ilə doldu.

21 Bütün Moavlılar eşitdilər ki, padşahlar onlarla
vuruşmağa gəlir. Silah qurşana bilən hər kəsi və
daha yaşlı adamları çağırdılar. Onlar sərhəddə
dayandılar.
22 Moavlılar ertəsi gün səhər tezdən duran za-
man günəş çıxıb suların üzərinə şəfəq salmışdı. On-
lar qarşılarındakı suları qan kimi qırmızı gördülər.
23 O zaman dedilər: «Bu qandır, yəqin padşahlar
vuruşub bir-birlərini qırıblar. İndi, ey Moavlılar,
qarət etməyə gedək!»
24 Onlar İsrail ordugahına gəldilər. İsraillilər
qalxıb Moavlıları qırdılar və Moavlılar onların
qabağından qaçmağa başladılar. İsraillilər qalxıb
Moav torpağını viran etmək üçün hücum etdilər.
25 Onlar şəhərləri dağıtdılar, hər yaxşı tarlanı
daşlarla doldurdular, bütün bulaqların gözünü tut-
dular və hər yaxşı ağacı kəsdilər. Yalnız Qir-
Xaresetin daşları yerində qaldı, ancaq sapandçılar
onu da mühasirəyə alıb vurdular.
26 Moav padşahı döyüşdə məğlub olduğunu
görəndə özü ilə yeddi yüz nəfər əli qılınclı adam
götürdü. Onlar Edom padşahının qoşununu
yarmaq istədilər, ancaq bunu edə bilmədilər.
27 Sonra o, vəliəhd olan ilk oğlunu götürüb di-

varın üzərində yandırma qurbanı gətirdi. Onda İsraillilərə qarşı böyük bir qəzəb oyandı, onlar da oranı tərk edib öz ölkələrinə qayıtdılar.

# 4

## *Elişanın yoxsul dul qadına kömək etməsi*

1 Peyğəmbərlərdən olan bir adamın arvadı
Elişaya fəryad edərək dedi: «Sənin qulun ərim öldü! Bilirsən ki, o qulun Rəbdən qorxurdu. İndi isə bir borc sahibi iki oğlumu özünə qul etmək üçün gəlmişdi».
2 Elişa ona dedi: «Sənin üçün nə edim? Mənə
söylə görüm, evində nəyin var?» Qadın dedi: «Bir qab yağdan başqa bu kənizinin evində heç nə yoxdur».
3 Elişa dedi: «Get bayırda bütün qonşularından
özün üçün boş qablar istə, qoy çox olsun.
4 Sonra içəri gir, özünün və oğullarının dalınca
qapını bağla, öz yağını bütün bu qablara tök və onları doldurub bir tərəfə qoy».
5 Qadın onu tərk edib qapını özünün və
oğullarının dalınca bağladı. Oğulları qabları onun yanına gətirdilər, o da doldurdu.
6 Qablar dolanda o, oğullarından birinə dedi:
«Mənə bir qab da gətir». Oğlu ona dedi: «Daha qab qalmadı». Onda yağ kəsildi.
7 Qadın gəlib bunları Allah adamına danışdı, o
da dedi: «Get yağı satıb borcunu ödə. Qalanı ilə də oğullarınla birgə dolanarsan».

## *Elişa və Şunemli varlı qadın*

8 Bir gün Elişa Şunemdən keçirdi. Orada yaşayan
varlı bir qadın Elişanı çörək yeməyə dəvət etdi.

Sonralar Elişa hər dəfə keçəndə çörək yemək üçün
oraya gedərdi.
9 Qadın ərinə dedi: «İndi bildim ki, həmişə
yanımızdan keçən bu adam müqəddəs bir Allah
adamıdır.
10 Gəl damda ona kiçik bir otaq düzəldək, oraya
onun üçün yataq, süfrə, taxt, bir də çıraq qoyaq ki,
bizə gələndə orada qalsın».

11 Bir gün Elişa oraya gəldi və damdakı otağa çıxıb
orada yatdı.
12 O, nökəri Gehaziyə dedi: «Şunemli qadını
çağır». O, qadını çağırdı və qadın onun qarşısında
dayandı.
13 Elişa nökərinə dedi: «İndi qadına söylə: "Bizim
üçün bu qədər zəhmət çəkmisən. Mən sənin üçün
nə edə bilərəm? Sənin barəndə padşahla ya ordu
başçısı ilə danışım?"» Gehazi bunu söylədi. Qadın
dedi: «Yox, lazım deyil, mən öz xalqımla birgə
yaşayıram».
14 Elişa dedi: «Elə isə onun üçün nə edə bilərəm?»
Gehazi dedi: «Doğrusu, oğlu yoxdur, əri də qocadır».
15 Elişa dedi: «Qadını çağır». Gehazi qadını çağırdı
və o gəlib qapıda durdu.
16 Elişa dedi: «Bir ildən sonra bu fəsildə qu-
cağında bir oğlun olacaq». Qadın dedi: «Yox, ey
ağam Allah adamı, kənizinə yalan söyləmə!»
17 Elişanın söylədiyi kimi qadın hamilə oldu və
bir il sonra həmin fəsildə bir oğlan doğdu.

18 Uşaq böyüdü. O, bir gün biçinçilərlə birgə
işləyən atasının yanına getdi.
19 O, atasına «Başım ağrıyır, başım!» dedi. Atası
nökərə dedi: «Onu anasının yanına apar».

20 Nökər onu götürüb anasının yanına gətirdi. O,
günortaya qədər anasının dizləri üstündə qaldı və
sonra öldü.
21 Qadın yuxarı çıxıb uşağı Allah adamının yatağı
üstünə uzandırdı, sonra qapını dalınca örtüb çıxdı.
22 O, ərini çağırıb dedi: «Nökərlərindən biri ilə
mənə bir eşşək göndər. Tez Allah adamının yanına
gedib-qayıdacağam».
23 Əri dedi: «Nə üçün bu gün onun yanına
gedirsən? Nə Təzə Ay mərasimi, nə də Şənbə
günüdür». Qadın dedi: «Eybi yox».
24 O, eşşəyi palanlayıb nökərinə dedi: «Sür və
mən sənə deməyincə dayanma».
25 O getdi və Karmel dağına, Allah adamının
yanına gəldi.

Allah adamı qadını uzaqdan gördükdə nökəri Gehaziyə dedi: «Şunemli qadın buraya gəlir.
26 İndi onun qabağına qaçıb soruş: "Necəsən,
yaxşısanmı, ərin və oğlun yaxşıdırmı?"» O gedib
soruşdu. Qadın dedi: «Yaxşıyıq».
27 Qadın dağa çıxıb Allah adamının yanına gəldi
və onun ayaqlarına sarıldı. Gehazi onu geri
itələmək üçün yaxınlaşdı, ancaq Allah adamı dedi:
«Onu burax, çünki ürəyi kədərlidir, ancaq Rəbb
bunun səbəbini gizlətdi və mənə bildirmədi».
28 Qadın dedi: «Mən ağamdan uşaq istədimmi?
"Məni aldatma" demədimmi?»
29 Elişa Gehaziyə dedi: «Belini qurşa və əsamı
əlinə götürüb get. Əgər bir adamla rastlaşsan, ona
salam vermə və sənə salam verənin salamını alma.
Get, əsamı oğlanın üzünün üstünə qoy».
30 Oğlanın anası dedi: «Var olan Rəbbə və sənin
canına and olsun ki, səndən əl çəkmərəm». Elişa

qalxıb onun dalınca getdi.
31 Gehazi onlardan qabaq getdi və əsanı oğlanın
üzünün üstünə qoydu, ancaq nə bir səs, nə də bir
cavab oldu. Gehazi Elişanı qarşılamaq üçün geri
döndü və «oğlan dirilmədi» deyə ona bildirdi.
32 Elişa evə girdi. Ölən oğlan onun yatağı üstündə
uzanmışdı.
33 O içəri girib qapını onların üzünə bağladı və
Rəbbə dua etdi.
34 Sonra yatağa qalxıb uşağın üstünə əyildi.
Ağzını onun ağzının, gözlərini onun gözlərinin,
ovuclarını onun ovuclarının üstünə qoydu. Uşağın
bədəni isindi.
35 Elişa yataqdan düşüb otaqda o tərəf-bu tərəfə
gəzdi. Sonra yenə yatağa qalxıb onun üstünə əyildi.
Oğlan yeddi dəfə asqırıb gözlərini açdı.
36 Elişa Gehazini çağırıb dedi: «Şunemli qadını
çağır». O, qadını çağırdı. Qadın Elişanın yanına
gələndə o dedi: «Al oğlunu».
37 Qadın gəlib Elişanın ayaqlarına düşərək yerə
qədər əyildi və oğlunu götürüb getdi.

### *Elişanın şorbanı pak etməsi*

38 Elişa yenə Qilqala gəldi. Vilayətdə aclıq
idi. Peyğəmbərlər onun önündə oturmuşdular.
O, nökərinə dedi: «Böyük qazanı ocağa qoy və
peyğəmbərlər üçün şorba bişir».
39 Onlardan biri ot yığmaq üçün çölə çıxdı. Bir çöl
tənəyi tapıb ondan ətək dolusu yabanı balqabaq
yığdı və gətirib şorba qazanına doğradı. Bunun nə
olduğunu bilməyərək
40 yemək üçün adamlara verdilər. Şorba yeyənlər
qışqırıb dedilər: «Qazandakı yeməkdən yesək,

ölərik, ey Allah adamı!» Heç kəs ondan yeyə
bilmədi.
41 Elişa dedi: «Elə isə un gətirin». Sonra onu
qazana atıb dedi: «Adamlar üçün tök, yesinlər».
Qazanda zərərli bir şey olmadı.

### *Elişanın yüz adama çörək verməsi*

42 Baal-Şalişadan bir adam gəldi. O, Allah adamı
üçün ilk nübardan bişirilən iyirmi kömbə arpa
çörəyi və təzə sünbülləri torbada gətirdi. Elişa dedi:
«Adamlara ver, yesinlər».
43 Onun qulluqçusu dedi: «Bunu yüz adamın
qabağına necə qoyaq?» Elişa dedi: «Adamlara ver,
yesinlər. Çünki Rəbb belə deyir: “Yeyəcəklər, hələ
artıq da qalacaq”».
44 Yeməyi onların qabağına qoydular. Rəbbin
dediyi kimi onlar yedilər və yemək artıq qaldı.

# 5

### *Naamanın cüzamdan şəfa tapması*

1 * Aram padşahının ordu başçısı Naaman
ağasının yanında hörmət və etibar sahibi idi, çünki
Rəbb onun vasitəsilə Arama qurtuluş vermişdi. O,
cəsur bir döyüşçü idi, ancaq cüzamlı idi.
2 Aramlılar dəstələrlə çıxıb İsrail torpağından kiçik
bir qızı əsir götürmüşdülər. Bu qız Naamanın ar-
vadının yanında qalırdı.
3 O, xanımına dedi: «Kaş ki ağam Samariyada
peyğəmbərin yanında olaydı. O zaman peyğəmbər
onun cüzamına şəfa verərdi».
4 Naaman gedib «İsrail torpağından olan qız belə-
belə söylədi» deyə ağasına bildirdi.

* **5:1** Luka 4:27

5 Aram padşahı dedi: «Get, mən İsrail padşahına
bir məktub göndərərəm». Naaman özü ilə altı
min şekel qızıl, on talant gümüş və on dəst paltar
götürüb getdi.
6 Məktubu da İsrail padşahına gətirdi. Orada belə
yazılmışdı:

«İndi bu məktubla bərabər qulum Naamanı da yanına göndərirəm ki, sən onun cüzamına şəfa verəsən».

7 İsrail padşahı məktubu oxuyanda paltarını
cırıb dedi: «Məgər mən öldürüb-dirildən Allaham?
Niyə bu adam cüzamına şəfa vermək üçün mənim
yanıma adam göndərir? Baxarsınız, mənimlə dava
etmək üçün bəhanə axtarır».
8 Allah adamı Elişa İsrail padşahının öz paltarını
cırdığını eşidəndə ona xəbər göndərib dedi: «Nə
üçün paltarını cırdın? Qoy indi o mənim yanıma
gəlsin və bilsin ki, İsraildə bir peyğəmbər var».
9 Naaman atları və döyüş arabası ilə gəldi və
Elişanın evinin qapısında dayandı.
10 Elişa onun yanına qasid göndərib dedi: «Get,
İordan çayında yeddi dəfə yuyun ki, bədənin sağalıb
tər-təmiz olsun».
11 Ancaq Naaman acıqlanıb getdi və dedi: «Mən
güman edirdim ki, mütləq bayıra çıxıb yanıma
gələcək, durub Allahı Rəbbin adını çağıracaq və əlini
cüzamlı yerin üzərində yelləyib şəfa verəcək.
12 Dəməşqin çayları Avana və Parpar İsrailin bütün
sularından daha yaxşı deyilmi? Onlarda yuyunub
təmiz ola bilməzdimmi?» O hirslə dönüb getdi.
13 Naamanın adamları onun yanına gəlib
dedilər: «Ey atamız, əgər peyğəmbər sənə böyük bir

şey əmr etsəydi, ona əməl etməzdinmi? O yalnız
sənə “yuyun və təmiz ol” deyir».
14 Bundan sonra Naaman Allah adamının sözünə
görə İordan çayına enib yeddi dəfə suya baş vurdu.
Onun bədəni sağaldı və körpə bədəni kimi tər-təmiz
oldu.
15 Naaman bütün dəstəsi ilə yenə Allah adamının
yanına gəldi və onun önündə dayanıb dedi: «Bax
indi bildim ki, İsraildən başqa, dünyanın heç
bir yerində Allah yoxdur. Buyur bu qulunun
hədiyyəsini götür».
16 Lakin Elişa dedi: «Önündə durduğum var olan
Rəbbə and olsun ki, heç nə götürməyəcəyəm». Naa-
man götürməyi təkid etdi, ancaq Elişa istəmədi.
17 Naaman dedi: «Əgər götürmürsənsə, onda qoy
bu quluna buradan iki qatır yükü torpaq verilsin.
Çünki bu qulun artıq başqa allahlara deyil, yalnız
Rəbbə yandırma qurbanları və təqdimlər gətirəcək.
18 Ancaq Rəbb bu işi quluna bağışlasın: ağam
padşah səcdə etmək üçün Rimmon məbədinə
girəndə mən onun sağında durmalıyam, onda
Rimmon məbədində mən də səcdə etməliyəm.
Orada səcdə etdiyimi Rəbb quluna bağışlasın».
19 Elişa ona dedi: «Sağ-salamat get». Naaman
onun yanından çıxıb bir az yol getdi.

20 Allah adamı Elişanın nökəri Gehazi dedi:
«Ağam gətirdiyi şeyi bu Aramlı Naamandan
götürmək istəmədi. Var olan Rəbbə and olsun
ki, onun dalınca qaçıb ondan nəsə alacağam».
21 Gehazi Naamanın dalınca qaçdı. Naaman
dalınca bir nəfərin gəldiyini görəndə onu
qarşılamaq üçün arabadan düşüb dedi: «Xeyir

ola?»
22 Gehazi dedi: «Xeyirdir. Ağam məni göndərdi
ki, sənə deyim: “Elə indicə Efrayimin dağlıq
bölgəsindən yanıma peyğəmbərlərdən olan iki ca-
van oğlan gəldi. Xahiş edirəm, onlara bir talant
gümüş və iki dəst paltar ver”».
23 Naaman dedi: «Buyur iki talant götür». Ona
təkid edərək iki talant gümüşü iki torbaya qoyub
bağladı və iki dəst paltarla birgə nökərlərindən ik-
isinə verdi. Nökərlər Gehazinin qabağında gedib
bunları daşıdılar.
24 Təpəyə çatanda Gehazi şeyləri onların əlindən
alıb evinə qoydu. Nökərləri geri göndərdi və onlar
getdilər.
25 Sonra ağası Elişanın yanına gedib önündə
dayandı. Elişa ondan soruşdu: «Haradan gəlirsən,
Gehazi?» Gehazi dedi: «Bu qulun heç yerə
getməyib».
26 Elişa ona dedi: «O adam səni qarşılamaq üçün
arabasından düşəndə ürəyim orada deyildimi? İndi
gümüş götürmək, paltar, zeytun və üzüm bağları,
qoyun-keçi, mal-qara, qullar və kənizlər almaq
vaxtıdırmı?
27 Buna görə də Naamanın cüzamı əbədi olaraq
sənə və sənin nəslinə yapışacaq». Gehazi qar kimi
cüzamlı olub onun hüzurundan çıxdı.

# 6

### *Baltanın su üzərinə çıxması*

1 Peyğəmbərlər Elişaya dedilər: «Bax indi sənin
yanında qaldığımız yer bizə dardır.

2 Qoy İordan çayının kənarına gedək, hərəmiz bir
ağac kəsib gətirək və qalmaq üçün orada özümüzə
yer düzəldək». Elişa «gedin» dedi.
3 Onlardan biri dedi: «Xahiş edirəm, sən də bu
qullarınla gəl». Elişa «gələrəm» deyib
4 onlarla getdi. Onlar İordan çayının kənarına
gəldilər və ağac kəsməyə başladılar.
5 Onlardan biri ağac kəsərkən baltanın dəmiri
suya düşdü. O qışqırıb dedi: «Vay, ağam! Onu borc
almışdım».
6 Allah adamı dedi: «Hara düşdü?» O, Elişaya
həmin yeri göstərdi. Elişa bir budaq kəsib oraya
atdı və dəmir suyun üzərinə çıxdı.
7 Elişa «onu qaldır» dedi. Həmin adam əlini
uzadıb onu qaldırdı.

### *Elişanın Aram ordusunu əsir alması*

8 Aram padşahı İsrailə qarşı vuruşduğu zaman
əyanları ilə məsləhətləşib dedi: «Filan yerdə or-
dugah quracağam».
9 Allah adamı İsrail padşahına xəbər göndərib
dedi: «O yerdən keçmə, çünki Aramlılar oraya
enirlər».
10 İsrail padşahı Allah adamının dediyi yerə xəbər
göndərdi. Beləcə padşah onun xəbərdarlıq etdiyi
yerlərdə dəfələrlə özünü qorudu.
11 Aram padşahı bundan çox qəzəbləndi və
əyanlarını çağırıb onlara dedi: «Mənə deyin
görək, bizimkilərdən İsrail padşahına tərəfdar olan
kimdir?»
12 Əyanlardan biri dedi: «Heç kim, ağam padşah.
Bunları İsrail padşahına bildirən İsraildə olan

peyğəmbər Elişadır. O hətta yataq otağında
söylədiyin sözləri ona çatdırır».
13 Padşah dedi: «Gedin görün, o haradadır, mən
onu bura gətirtdirəcəyəm». Padşaha «o, Dotan-
dadır» deyə bildirdilər.
14 Padşah atlar, döyüş arabaları və çoxlu qoşun
göndərdi və onlar gecə ikən gəlib şəhəri əhatəyə
aldılar.
15 Allah adamının qulluqçusu səhər tezdən durub
bayıra çıxdı və şəhərin ətrafında qoşunun, atların və
döyüş arabalarının olduğunu gördü. O, Elişaya dedi:
«Vay, ağam, nə edəcəyik?»
16 O dedi: «Qorxma, çünki bizimlə olanlar onlarla
olanlardan çoxdur».
17 Sonra Elişa dua edib dedi: «Ya Rəbb, onun
gözlərini aç ki, görsün». Rəbb nökərin gözlərini açdı
və o gördü ki, dağ odlu atlar və döyüş arabaları ilə
doludur. Onlar Elişanı əhatəyə almışdı.
18 Qoşun ona tərəf enəndə Elişa Rəbbə dua edib
dedi: «Bu adamları kor et». Elişanın sözünə görə
Rəbb onları kor etdi.
19 Elişa onlara dedi: «Yol bu deyil, şəhər də
bu deyil. Ardımca gəlin, sizi axtardığınız adamın
yanına aparım». Elişa onları Samariyaya gətirdi.
20 Onlar Samariyaya girəndə Elişa dedi: «Ya
Rəbb, onların gözlərini aç ki, görsünlər». Rəbb
onların gözlərini açdı və onlar gördülər ki,
Samariyanın ortasındadırlar.
21 İsrail padşahı onları görəndə Elişaya dedi:
«Mənim atam, onları qırıb məhv edimmi?»
22 Elişa dedi: «Yox, qırma. Məgər bu adamları sən
qılıncın və ox-kamanınla əsir etmisən ki, qırmağa
haqqın olsun? Onların qabağına çörək və su

qoy ki, yeyib-içsinlər və sonra öz ağalarının yanına
getsinlər».
23 O, Aramlılar üçün böyük bir ziyafət verdi
və onlar yeyib-içdilər. Sonra onları öz ağalarının
yanına göndərdi. Aramlıların dəstələri bir daha
İsrail torpağına gəlmədi.

### *Samariyada aclıq*

24 Bir müddət sonra Aram padşahı Ben-Hadad
bütün ordusunu toplayıb çıxdı və Samariyanı
mühasirəyə aldı.
25 Samariyada böyük bir aclıq oldu. Çünki şəhəri
o qədər mühasirədə saxlamışdılar ki, bir eşşək başı
səksən şekel gümüşə və bir kabın dörddə biri qədər
göyərçin peyini beş şekel gümüşə satılırdı.
26 Bir dəfə İsrail padşahı qala divarının üstündən
keçəndə bir qadın fəryad edib ona dedi: «Ağam
padşah, kömək et!»
27 Padşah dedi: «Rəbb sənə kömək etməsə,
mən sənə necə kömək edim? Xırmandan yoxsa
üzümsıxandan?»
28 Sonra padşah ona dedi: «Nə istəyirsən?» O
dedi: «Bu qadın mənə demişdi: "Sən öz oğlunu ver,
bu gün yeyək, mənim oğlumu isə sabah yeyərik".
29 * Oğlumu bişirib yedik. Ertəsi gün ona dedim:
"Öz oğlunu ver, yeyək". Ancaq o, oğlunu gizlətdi».
30 Padşah qadının sözlərini eşidəndə paltarını
cırdı. O bu vaxt qala divarının üstündən keçirdi və
xalq gördü ki, onun əynində çul var.
31 Padşah dedi: «Əgər bu gün Şafat oğlu Elişanın
başı çiyni üstündə qalsa, Allah mənə beləsini və
bundan betərini eləsin».

* **6:29** Qanun. 28:57

32 Elişa öz evində oturmuşdu, ağsaqqallar da onun
yanında əyləşmişdi. Padşah hüzurundan bir qasid
göndərdi. Amma qasid yanına gəlməzdən qabaq
Elişa ağsaqqallara dedi: «Görürsünüzmü, bu qatil
mənim boynumu vurmaq üçün adam göndərir!
Baxın qasid gələndə qapını bağlayın və onu içəri
buraxmayın. Onun arxasınca ağasının da ayaq
səsləri gələcək!»
33 Elişa hələ danışarkən qasid onun yanına gəlib
dedi: «Bax bu bəlanı göndərən Rəbdir. Nə üçün
daha Rəbdən kömək gözləyək?»

# 7

1 Elişa dedi: «Rəbbin sözünü eşidin, Rəbb belə
deyir: "Sabah bu vaxt Samariya darvazasında bir
sea narın un bir şekelə və iki sea arpa bir şekelə
satılacaq"».
2 Padşahın sağında duran köməkçi Allah adamına
cavab verib dedi: «Rəbb göylərdə pəncərələr açsa
da, bu iş ola bilməz». Allah adamı isə dedi:
«Bax sən gözlərinlə bunu görəcəksən, ancaq ondan
yeməyəcəksən».

### *Mühasirənin sonu*

3 Şəhər darvazasının önündə dörd cüzamlı adam
var idi. Onlar bir-birlərinə dedilər: «Nə üçün biz
ölənə qədər burada oturub qalmalıyıq?
4 Əgər şəhərə girsək, şəhərdə olan aclıqdan
öləcəyik, burada qalsaq, burada öləcəyik. Onda
Aramlıların ordugahına gedib təslim olaq. Əgər
bizi sağ buraxsalar, sağ qalarıq, öldürsələr, ölərik».
5 Onlar Aramlıların ordugahına getmək üçün
axşam alaqaranlığında qalxıb onun kənarına
gəldilər. Orada heç kəs yox idi.

6 Rəbb Aramlıların ordusuna döyüş arabalarının
gurultusunu, atların tappıltısını və böyük
ordunun səsini eşitdirmişdi. Onlar bir-birlərinə
söyləmişdilər: «İsrail padşahı Xet və Misir
padşahlarını muzdla tutmuşdur ki, bizim üstümüzə
gəlsinlər».
7 Onlar axşam alaqaranlığında qalxıb
qaçmışdılar. Çadırlarını, atlarını, eşşəklərini – bütün
ordugahı olduğu kimi buraxıb getmişdilər. Beləcə
canlarını qurtarmaq üçün qaçmışdılar.
8 Bu cüzamlılar ordugahın kənarına gəlib bir
çadıra girdilər və yeyib-içdilər. Oradan qızıl-gümüş,
paltar götürüb getdilər və onları gizlətdilər. Sonra
qayıdıb başqa bir çadıra girdilər. Oradan da şeylər
götürüb getdilər və onları da gizlətdilər.
9 Onlar bir-birlərinə dedilər: «Biz yaxşı eləmirik,
bu gün müjdə günüdür, biz isə susuruq. Səhər
açılana qədər gözləməyə haqqımız yoxdur, indi
gedək, saray adamlarına bu xəbəri bildirək».
10 Onlar gəlib şəhərin qapıçılarını səslədilər və
onlara bildirib dedilər: «Aramlıların ordugahına
getdik, orada heç kəs yox idi və insan səsi də
gəlmirdi. Ancaq bağlı atlar, bağlı eşşəklər və
olduğu kimi qalan çadırlar var idi».
11 Qapıçılar da qışqırıb bu xəbəri saray içərisində
olan adamlara bildirdilər.
12 Padşah gecə ikən qalxıb əyanlarına dedi:
«Aramlıların bizə nə etmək istədiklərini indi sizə
deyərəm: onlar bilirlər ki, biz acıq, buna görə də
ordugahdan çıxıb çöldə gizlənmişlər və “şəhərdən
çıxanda onları diri tutarıq və şəhərə girərik” deyə
düşünürlər».
13 Əyanlardan biri cavab verib dedi: «Qoy bir neçə

adam şəhərdə qalmış atlardan beşini götürsün və onları göndərək, gedib görsünlər. Onların da aqibəti qalan bütün İsrail camaatının aqibəti kimi olacaq, çünki bütün İsrail camaatı həlak olacaq».
14 Onlar atlar qoşulmuş iki döyüş arabası götürdülər. Padşah «gedin görün» deyib onları Aram ordusunun dalınca göndərdi.
15 Onlar Aramlıların dalınca İordan çayına qədər getdilər. Bütün yol Aramlıların tələsik qaçdıqları vaxt atdıqları geyim və əşyalarla dolu idi. Qasidlər geri qayıdıb padşaha bu xəbəri bildirdilər.
16 Xalq çıxıb Aramlıların ordugahını qarət etdi. Rəbbin sözünə görə bir sea narın un bir şekelə və iki sea arpa bir şekelə satıldı.
17 Padşah sağında duran köməkçini darvazanın ağzına qoymuşdu. Padşah Allah adamının yanına enib gəldiyi zaman onun söylədiyi kimi xalq padşahın köməkçisini darvazanın ağzında tapdaladı və o öldü.
18 Allah adamının padşaha söylədiyi kimi oldu. O demişdi: «Sabah bu vaxt Samariya darvazasında iki sea arpa bir şekelə və bir sea narın un bir şekelə satılacaq».
19 Padşahın köməkçisi də Allah adamına cavab verib demişdi: «Rəbb göylərdə pəncərələr açsa da, bu iş ola bilməz». Allah adamı isə demişdi: «Bax sən gözlərinlə bunu görəcəksən, ancaq ondan yeməyəcəksən».
20 Həmin şey də onun başına gəldi: xalq onu darvazanın ağzında tapdaladı və o öldü.

# 8

### *Şunemli qadının qayıtması (2Saln. 21:1-20)*

1 * Elişa oğlunu diriltdiyi qadına demişdi: «Qalx
öz ev adamlarınla birgə get və qala biləcəyin yerdə
qal. Çünki Rəbb qərar verdi ki, yeddi il ölkədə aclıq
olacaq».
2 Qadın Allah adamının sözünə əməl etmişdi və
ev adamları ilə birgə gedib Filiştlilərin ölkəsində
yeddi il qalmışdı.
3 Bu müddətdən sonra qadın Filiştlilərin
ölkəsindən qayıtdı. O, evini və tarlasını istəmək
üçün padşahın yanına getdi.
4 O vaxt padşah Allah adamının nökəri Gehazi ilə
danışaraq ona deyirdi: «Buyur Elişanın etdiyi bütün
böyük işləri mənə danış».
5 O, Elişanın ölünü necə diriltdiyini padşaha
danışdığı vaxt oğlu dirilən qadın da evini və tar-
lasını istəmək üçün padşaha yalvarmağa başladı.
Gehazi dedi: «Ağam padşah, o qadın budur,
Elişanın diriltdiyi oğlu da yanındadır».
6 Padşah qadından soruşanda o, padşaha hər şeyi
danışdı. Padşah ona bir saray xidmətçisi verib
dedi: «Onun hər şeyini qaytar, ölkəni tərk etdiyi
gündən indiyə qədər tarlasının yetirdiyi bütün
məhsulu ona ver».

### *Elişa və Aram padşahları*

7 Elişa Dəməşqə gəldi. Aram padşahı Ben-Hadad
xəstə idi. «Allah adamı buraya gəlib» deyə ona
bildirdilər.
8 Padşah Xazaelə dedi: «Bir hədiyyə götürüb
Allah adamını qarşılamağa get. “Bu xəstəlikdən

---

* **8:1** 2Pad. 4:8-37

sağalacağammı?” deyib onun vasitəsilə Rəbdən
soruş».
9 Xazael onu qarşılamağa getdi. Əlindəki hədiyyə
ilə birgə Dəməşqin bütün yaxşı şeylərindən qırx
dəvə yükü hədiyyə götürüb gəldi və onun önündə
durub dedi: «Oğlun Aram padşahı Ben-Hadad “Bu
xəstəlikdən sağalacağammı?” deyib məni sənin
yanına göndərdi».
10 Elişa ona dedi: «Get, ona “mütləq sağalacaqsan”
söylə. Ancaq Rəbb mənə göstərdi ki, o mütləq
öləcək».
11 Allah adamı Xazaeli utandırana kimi gözünü
onun üzünə dikdi və sonra ağladı.
12 Xazael dedi: «Ağam nə üçün ağlayır?» O
dedi: «Ona görə ki İsraillilərə sənin edəcəyin pis-
liyi bilirəm: onların qalalarına od vuracaqsan,
cavanlarını qılıncla öldürəcəksən, uşaqlarını daşlara
çırpacaqsan və hamilə qadınlarını doğrayacaqsan».
13 * Xazael dedi: «Bu köpək qulun kimdir ki, bu
böyük işi etsin?» Elişa dedi: «Rəbb mənə göstərdi
ki, sən Aram üzərində padşah olacaqsan».
14 Xazael Elişanı tərk edib ağasının yanına gəldi.
Ağası ondan soruşdu: «Elişa sənə nə dedi?» O cavab
verdi: «Mənə dedi ki, sən mütləq sağalacaqsan».
15 Ertəsi gün Xazael bir örtük götürüb suya
batırdı, ağasının üzünün üstünə çəkdi və o boğulub
öldü. Onun yerinə Xazael padşah oldu.

### *Yəhuda padşahı Yehoram (2Saln. 21:1-20)*

16 İsrail padşahı Axav oğlu Yehoramın
padşahlığının beşinci ilində, Yehoşafat Yəhuda

* **8:13** 1Pad. 19:15

padşahı olanda onun oğlu Yehoram da onunla
birgə padşah oldu.
17 O, padşah olduğu vaxt otuz iki yaşında idi və
Yerusəlimdə səkkiz il padşahlıq etdi.
18 Axav nəslinin etdiyi kimi o da İsrail
padşahlarının yolu ilə getdi, çünki Axavın qızı onun
arvadı idi. Yehoram Rəbbin gözündə pis olan işlər
etdi.
19 * Ancaq Rəbb Öz qulu Davudun xatirinə
Yəhudalıları məhv etmək istəmədi, çünki Davuda
və onun nəslinə əbədi olaraq bir çıraq verəcəyini
vəd etmişdi.
20 * Onun dövründə Edomlular üsyan qaldırıb
Yəhudanın əsarəti altından çıxdılar və özlərinə bir
padşah qoydular.
21 Yehoram bütün döyüş arabaları ilə birgə Sairə
getdi. Gecə ikən qalxıb onu hər tərəfdən əhatə edən
Edomluları və araba rəislərini qırdı, lakin xalq öz
torpağına qaçdı.
22 Beləcə Edomlular üsyan qaldırdılar, bu günə
qədər də Yəhudanın əsarəti altında deyillər. Həmin
vaxt Livnalılar da üsyan qaldırmışdılar.
23 Yehoramın qalan işləri və etdiyi hər şey
barədə Yəhuda padşahlarının salnamələr kitabında
yazılmışdır.
24 Yehoram ataları ilə uyudu və Davudun
şəhərində, atalarının yanında basdırıldı. Onun
yerinə oğlu Axazya padşah oldu.

### *Yəhuda padşahı Axazya (2Saln. 22:1-6)*

---

* **8:19** 1Pad. 11:36; 15:4; 2Saln. 21:7; Zəb. 132:17
* **8:20** Yar. 27:40

25 İsrail padşahı Axav oğlu Yehoramın
padşahlığının on ikinci ilində Yehoram oğlu Axazya
Yəhuda üzərində padşah oldu.
26 Axazya padşah olduğu vaxt iyirmi iki yaşında
idi və Yerusəlimdə bir il padşahlıq etdi. Anası İsrail
padşahı Omrinin nəvəsi olub adı Atalya idi.
27 Axazya da Axav nəslinin yolu ilə getdi və onlar
kimi Rəbbin gözündə pis olan işlər etdi, çünki Axav
nəslinin kürəkəni idi.
28 O, Aram padşahı Xazaelə qarşı vuruşmaq üçün
Axav oğlu Yehoramla birgə Ramot-Gileada getdi.
Aramlılar Yehoramı yaraladılar.
29 Padşah Yehoram Ramot-Gileadda Aram
padşahı Xazaelə qarşı vuruşarkən Aramlıların ona
vurduqları yaraları sağaltmaq üçün İzreelə qayıtdı.
Yəhuda padşahı Yehoram oğlu Axazya, Axav oğlu
Yehoramı görmək üçün İzreelə gəldi, çünki o, yaralı
idi.

# 9

## *İsrail padşahı Yehu*

1 Peyğəmbər Elişa peyğəmbərlərdən birini
çağırıb ona demişdi: «Belini qurşa və bu yağ qabını
əlinə alıb Ramot-Gileada get.
2 Oraya çatınca Nimşi oğlu Yehoşafat oğlu Yehunu
tap. Girib onu yoldaşlarının arasından çağır və içəri
otağa apar.
3 Yağ qabını götür və yağı onun başına töküb
söylə: “Rəbb belə deyir: ‹Səni İsrail üzərində padşah
olmaq üçün məsh etdim›”. Sonra qapını açıb qaç
və orada durma».

4 Peyğəmbərin nökəri olan bu cavan oğlan
Ramot-Gileada getdi.
5 Oraya gəlib gördü ki, qoşun başçıları burada
oturmuşlar. O dedi: «Ey rəis, sənə sözüm var».
Yehu dedi: «Aramızdan kimə?» Nökər dedi: «Ey rəis,
sənə».
6 * Yehu qalxıb içəri girdi. Nökər yağı onun
başına töküb dedi: «İsrailin Allahı Rəbb belə deyir:
“Səni Rəbbin xalqı olan İsrail üzərində padşah ol-
maq üçün məsh etdim.
7 Ağan Axavın nəslini qırıb məhv edəcəksən.
Qullarım peyğəmbərlərin və Rəbbin bütün
qullarının qanı üçün Mən İzeveldən qisasımı
alacağam.
8 Bütün Axav nəsli məhv olacaq: İsraildə Axav-
dan divar isladan hər kəsi – bütün kişiləri, istər kölə
olsun, istər azad, kəsib atacağam.
9 Axavın nəslini Nevat oğlu Yarovamın və Axiya
oğlu Baaşanın nəsilləri kimi edəcəyəm.
10 * İzeveli isə İzreel tarlasında köpəklər yeyəcək
və onu basdıran olmayacaq”». Sonra o, qapını açıb
qaçdı.
11 Yehu çıxıb ağasının adamlarının yanına gəldi.
Onlardan biri Yehuya dedi: «Xeyir ola? Bu
dəli sənin yanına nə üçün gəlib?» Yehu onlara
dedi: «Onun necə adam olduğunu və nə deyəcəyini
bilirsiniz».
12 Onlar dedilər: «Yalan deyirsən! Onun nə
dediyini bizə bildir». Yehu dedi: «Mənə söylədi ki,
Rəbb belə deyir: “Səni İsrail üzərində padşah olmaq
üçün məsh etdim”».

* **9:6** 1Pad. 19:16 * **9:10** 1Pad. 21:23

13 Hamı tez qalxıb öz paltarını götürdü və onları
pilləkənin üstünə – Yehunun ayağı altına sərdi. On-
lar şeypur çalıb «Yehu padşahdır!» dedilər.

### *Yehunun Yehoramı öldürməsi*

14 Nimşi oğlu Yehoşafat oğlu Yehu Yehorama qəsd
hazırladı. O vaxt Yehoram və onunla birgə bütün
İsraillilər Ramot-Gileadı Aram padşahı Xazaelin
hücumundan qoruyurdular.
15 * Ancaq padşah Yehoram Aram padşahı
Xazaelə qarşı vuruşarkən Aramlıların ona
vurduqları yaraları sağaltmaq üçün İzreelə
qayıtmışdı. Yehu dedi: «Əgər siz mənimlə
razısınızsa, qoy şəhəri heç kəs tərk etməsin ki,
bu xəbər İzreelə gedib çatmasın».
16 Yehu arabaya minib İzreelə getdi, çünki Yeho-
ram orada yatırdı. Yəhuda padşahı Axazya Yeho-
ramı görmək üçün gəlmişdi.
17 İzreeldəki qüllə üzərində duran gözətçi Yehu-
nun oraya yaxınlaşan qoşununu görüb dedi: «Qoşun
görürəm». Yehoram dedi: «Bir atlı götürüb onları
qarşılamağa göndər ki, soruşsun: “Xeyir ola?”»
18 Bir atlı Yehunu qarşılamağa getdi və ona
dedi: «Padşah soruşur: “Xeyir ola?”» Yehu dedi:
«Xeyirdən sənə nə? Dön, dalımca gəl». Gözətçi dedi:
«Qasid onların yanına gəldi, ancaq geri qayıtmır».
19 İkinci atlını göndərdilər, o da Yehunun yanına
gəlib dedi: «Padşah soruşur: “Xeyir ola?”» Yehu
dedi: «Xeyirdən sənə nə? Dön, dalımca gəl».

---

* **9:15** 2Saln. 22:6

20 Gözətçi dedi: «Qasid onların yanına gəldi, ancaq geri qayıtmır. Araba sürməyi Nimşi oğlu Yehunun sürməyinə oxşayır, çünki o dəli kimi sürür».
21 Yehoram dedi: «Arabamı qoş». Onun arabasını
qoşdular. İsrail padşahı Yehoram və Yəhuda padşahı Axazya öz arabalarında Yehunu qarşılamağa çıxdılar və İzreelli Navotun tarlasında onunla rastlaşdılar.
22 Yehoram Yehunu görəndə soruşdu: «Xeyir ola,
Yehu?» Yehu dedi: «Anan İzevelin xainlikləri və cadugərlikləri bu qədər çox olduğu halda necə xeyir ola bilər?»
23 Yehoram arabasını döndərdi və Axazyaya
«Xəyanət, ey Axazya!» deyib qaçdı.
24 Yehu ox-kamanını çəkdi və Yehoramı
kürəyindən vurdu. Ox onun ürəyindən keçib çıxdı və o öz arabasına yıxıldı.
25 Yehu padşahın köməkçisi Bidqara dedi: «Onu
götürüb İzreelli Navotun tarlasına at. Yadına sal, mən səninlə birgə onun atası Axavın dalınca gedərkən Rəbb ona qarşı belə söyləmişdi:
26 * “Navotun və onun oğullarının qanı dünən
Mənim gözümün qabağına gəldi” bəyan edir Rəbb. “Səndən bu tarlada qisas alacağam” bəyan edir Rəbb. İndi Rəbbin sözünə görə onu götürüb tarlaya at».

### *Yehunun Yəhuda padşahı Axazyanı öldürməsi*

27 Yəhuda padşahı Axazya bunu gördükdə Bet-
Haqqan yolu ilə qaçdı. Yehu onu təqib edib dedi: «Onu da vurun». İvleam yanında olan Qur

* **9:26** 1Pad. 21:19

yoxuşunda onu arabada vurdular. O, Megiddoya
qaçıb orada öldü.
28 Adamları onu araba ilə Yerusəlimə gətirdilər
və Davudun şəhərində, atalarının yanında, öz
qəbrində basdırdılar.
29 Axav oğlu Yehoramın padşahlığının on birinci
ilində Axazya Yəhuda üzərində padşah olmuşdu.

### *Yehunun İzeveli öldürməsi*

30 Yehu İzreelə gəldi. İzevel bunu eşitdi. O,
gözlərinə sürmə çəkib başına bəzək vurdu və
pəncərədən boylanıb baxdı.
31 Yehu darvazadan girəndə İzevel dedi: «Xeyir
ola, ey öz ağasını öldürən Zimri?»
32 Yehu üzünü pəncərəyə doğru qaldırıb dedi:
«Kim mənimlədir, kim?» İki-üç saray xidmətçisi
boylanıb ona baxdı.
33 Yehu dedi: «Onu aşağı atın». İzeveli aşağı atdılar.
Qanı divarın və atların üstünə sıçradı və atlar onun
cəsədini tapdaladı.
34 Yehu içəri girərək yeyib-içdi və dedi: «Bu
lənətə gəlmiş qadını götürüb basdırın, çünki padşah
qızıdır».
35 Onlar İzeveli basdırmaq üçün getdilər. Ancaq
onun kəlləsindən, ayaqlarından və ovuclarından
başqa heç nə tapmadılar.
36 * Geri qayıdıb Yehuya söylədilər. O dedi: «Qulu
Tişbeli İlyas vasitəsilə Rəbbin söylədiyi söz belədir:
“İzreel tarlasında İzevelin ətini köpəklər yeyəcək.

* **9:36** 1Pad. 21:23

37 İzevelin cəsədi İzreel tarlasına tökülmüş peyin kimi olacaq və heç kəs deyə bilməyəcək ki, bu, İzeveldir"».

# 10

## *Yehunun şahzadələri öldürməsi*

1 Samariyada Axavın nəslindən olan yetmiş
nəfər şahzadə var idi. Yehu İzreel başçılarına, ağsaqqallara və Axavın nəslindən olan uşaqların himayəçilərinə məktublar yazıb Samariyaya göndərdi. O belə yazdı:
2 «Ağanızın şahzadələri sizin yanınızdadır, döyüş arabalarınız və atlarınız, qalalı şəhəriniz və silahlarınız var. Bu məktub sizə çatanda
3 ağanızın şahzadələrindən ən yaxşısını, ən layiqlisini seçib onu atasının taxtında oturdun və ağanızın nəsli üçün vuruşun».
4 Onlar çox qorxub dedilər: «İki padşah ona qarşı dayana bilmədi, biz necə dayanacağıq?»
5 Saray rəisi, şəhər başçısı, ağsaqqallar və himayəçilər Yehuya xəbər göndərib dedilər: «Biz sənin qullarınıq və bizə dediyin hər şeyi edərik, heç kəsi də padşah etməyəcəyik. Sən nə istəyirsən, onu da et».
6 Yehu ikinci məktubunda onlara belə yazdı:
«Əgər siz mənimlə razı olub sözümə qulaq asırsınızsa, ağanızın şahzadələrinin başlarını götürüb sabah bu vaxt İzreelə, yanıma gəlin». Yetmiş nəfər şahzadə onları tərbiyə edən şəhərin böyük adamlarının yanında qalırdı.

7 Məktub onlara çatanda onlar yetmiş nəfər
şahzadəni tutub öldürdülər və başlarını səbətlərə
qoyub İzreelə, Yehuya göndərdilər.
8 Qasid gəldi və ona bildirib dedi: «Şahzadələrin
başlarını gətirdilər». Yehu dedi: «Onları iki qalaq
edib darvazanın girişində səhərə qədər qoyun».
9 Səhəri gün Yehu bayıra çıxdı və qalxıb bütün
xalqa dedi: «Sizin təqsiriniz yoxdur. Ağama mən
qəsd hazırladım və onu mən öldürdüm. Bəs bun-
ların hamısını kim qırdı?
10 Onda bilin ki, Axavın nəslinə qarşı Rəbbin
söylədiyi sözlərdən heç biri hədər gedə bilməz.
Rəbb Öz qulu İlyas vasitəsilə söylədiyi işi etmişdir».
11 * Yehu Axavın İzreeldəki sarayında olan
adamlardan sağ qalanların hamısını – onun bütün
böyüklərini, yaxın adamlarını və kahinlərini qırdı,
bir adamını da sağ buraxmadı.

*Yehu padşah Axazyanın qohumlarını öldürür*

12 Yehu Samariyaya tərəf yola düşdü. Yolda
çobanlara məxsus olan Bet-Eqeddən keçəndə
13 Yəhuda padşahı Axazyanın qohumlarına rast
gəldi və onlara dedi: «Siz kimsiniz?» Onlar
dedilər: «Biz Axazyanın qohumlarıyıq. Padşahın və
mələkənin övladlarını salamlamaq üçün gedirik».
14 Yehu dedi: «Bunları diri tutun». Onları diri tut-
dular və bu qırx iki nəfər adamı Bet-Eqed quyusu-
nun yanında öldürdülər. Yehu onlardan heç birini
sağ buraxmadı.

*Yehu Axavın Samariyada olan adamlarını öldürür*

---

* **10:11** Huşə 1:4

15 Yehu oradan gedəndə onu qarşılamağa
gələn Rekav oğlu Yehonadava rast gəldi və
onu salamlayıb dedi: «Sənin niyyətin mənim
ürəyimcə olduğu kimi mənim də niyyətim sənin
ürəyincədirmi?» Yehonadav «bəli» dedi. Yehu
dedi: «Elə isə əlini ver». O, əlini verdi və Yehu onu
öz arabasına qaldırdı.
16 Sonra dedi: «Mənimlə gəl və Rəbb üçün
göstərdiyim qeyrəti gör». Onu Yehunun arabasına
mindirib apardılar.
17 Yehu Samariyaya gəldi və Rəbbin İlyasa
söylədiyi sözə görə Axavın Samariyada qalan
bütün adamlarını tamamilə qırıb məhv etdi.

### *Yehunun Baala səcdə edənləri öldürməsi*

18 Yehu bütün xalqı toplayıb onlara dedi: «Axav
Baala az səcdə etdi, ancaq Yehu ona çox səcdə
edəcək.
19 İndi Baalın bütün peyğəmbərlərini, ona səcdə
edənlərin hamısını, onun bütün kahinlərini
mənim yanıma çağırın, heç kəs qalmasın, çünki
Baala böyük qurbanım var. Kim gəlməsə, sağ
qalmayacaq». Ancaq Yehu burada hiylə işlətdi ki,
Baala səcdə edənləri məhv etsin.
20 Yehu dedi: «Baal üçün təqdis olunmuş bir
toplantı çağırın». Onlar toplantı çağırdılar.
21 Yehu İsrailin hər tərəfinə xəbər göndərdi. Baala
səcdə edənlərin hamısı gəldi, gəlməyən bir nəfər
də qalmadı. Onlar Baal məbədinə girdilər və Baal
məbədi ağzınacan adamla doldu.
22 Yehu paltarlara baxan adama dedi: «Baala
səcdə edənlərin hamısı üçün əba ver». Bu adam da
onlar üçün əba verdi.

23 Yehu Rekav oğlu Yehonadavla birgə Baal
məbədinə girib Baala səcdə edənlərə dedi: «Axtarıb
baxın, burada Rəbbə səcdə edən bir nəfər sizinlə
olmasın, yalnız Baala səcdə edənlər olsun».
24 Onlar təqdimlər və yandırma qurbanları
gətirmək üçün qabağa gəldilər. Yehu bayırda
səksən adam qoymuşdu və onlara demişdi: «Əlinizə
verdiyim bu adamlardan biri kimdən qaçıb
qurtarsa, o adam əvəzində öz canını verəcək».
25 Yandırma qurbanları gətirilməsi sona çatanda
Yehu öz mühafizəçilərinə və rəislərinə dedi:
«İçəri girib onları qırın, heç kəs çıxa bilməsin».
Mühafizəçilər və rəislər onları qılıncdan keçirib
qırdılar və meyitlərini bayıra atdılar. Sonra Baal
məbədinin içəri otağına girdilər.
26 Oradan Baal məbədinin büt olan sütununu
çıxarıb yandırdılar.
27 Beləcə Baala qoyulan sütunu yıxdılar. Baal
məbədini də dağıdıb ayaqyolu etdilər, ora bu günə
qədər də belədir.
28 Beləliklə, Yehu İsraildən Baalın kökünü kəsdi.
29 * Ancaq Yehu Nevat oğlu Yarovamın İsrailə
etdirdiyi günahlardan, Bet-Eldə və Danda olan qızıl
danalara səcdə etməkdən əl çəkmədi.
30 Rəbb Yehuya dedi: «Sən gözümdə doğru olan
işlər görməklə yaxşı elədin və Mənim ürəyimdə
olan hər şeyə görə Axavın adamları ilə rəftar et-
din. Buna görə də dördüncü nəslinə qədər sənin
övladların İsrail taxtında oturacaq».
31 Ancaq Yehu bütün qəlbi ilə İsrailin Allahı
Rəbbin Qanunu ilə getmək istəmədi və Yarovamın

* **10:29** 1Pad. 12:28-30

İsrailə etdirdiyi günahlardan əl çəkmədi.

*Yehunun ölümü*

32 Rəbb o dövrdə İsrail torpağını kəsib kiçiltməyə
başladı. Xazael bütün İsrail hüdudlarında onları
məğlub etdi:
33 İordan çayının şərq tərəfindəki Qadlılara,
Ruvenlilərə və Menaşşelilərə məxsus olan bütün
Gilead torpağını, Arnon vadisinin kənarında olan
Aroerdən Gileada və Başana qədər hər tərəfi zəbt
etdi.
34 Yehunun qalan işləri, etdiyi hər şey və onun
bütün hünəri barədə İsrail padşahlarının salnamələr
kitabında yazılmışdır.
35 Yehu ataları ilə uyudu və onu Samariyada
basdırdılar. Onun yerinə oğlu Yehoaxaz padşah
oldu.
36 Yehunun Samariyada İsrail üzərində padşahlıq
etdiyi müddət iyirmi səkkiz il idi.

# 11

*Yəhuda mələkəsi Atalya*
*(2Saln. 22:10-23:15)*

1 Axazyanın anası Atalya oğlunun öldüyünü
görəndə qalxıb bütün padşah nəslini məhv etdi.
2 Ancaq padşah Yehoramın qızı, Axazyanın
bacısı Yehoşeva öldürülən şahzadələr arasından
Axazyanın oğlu Yoaşı gizlincə apardı və onu dayəsi
ilə birgə yataq otağında yerləşdirdi. Beləcə Yoaşı
Atalyadan gizlətdilər və o öldürülmədi.
3 O, altı il gizli olaraq Rəbbin məbədində dayəsi
ilə birgə qaldı. Atalya isə ölkə üzərində padşahlıq
etdi.

4 * Yeddinci ildə Yehoyada Karyalıların və
mühafizəçilərin yüzbaşılarını çağırtdırdı, onları
öz yanına – Rəbbin məbədinin içərisinə gətirdi.
Orada bu adamlarla əhd kəsib onları and içdirdi
və şahzadəni onlara göstərdi.
5 Sonra Yehoyada onlara əmr edib dedi: «Siz belə
edin: Şənbə günü növbə çəkənlərinizin üçdə biri
sarayın keşiyini çəksin,
6 üçdə biri Sur darvazasında dursun, üçdə biri isə
mühafizəçilərin arxasındakı darvazada dayansın.
Beləcə sarayın keşiyini çəkin.
7 Sizin iki bölüyünüz – Şənbə günü növbə
çəkməyənlərin hamısı padşahın tərəfində olub
Rəbbin məbədinin keşiyini çəksin.
8 Hər kəs silahı əlində padşahı əhatəyə alsın,
cərgələrinizə girən öldürülsün. Padşah girib-çıxdığı
vaxt onunla olun».
9 Yüzbaşılar kahin Yehoyadanın əmr etdiyi hər
şeyi etdilər: hər biri öz adamlarını, Şənbə günü
növbə çəkənləri və növbədə olmayanları götürüb
kahin Yehoyadanın yanına gəldi.
10 Kahin yüzbaşılara Rəbbin məbədində olan
padşah Davudun nizələrini və qalxanlarını verdi.
11 Mühafizəçilər məbədin sağ tərəfindən sol
tərəfinə qədər qurbangahın və məbədin yanında,
padşahın ətrafında dayandılar. Hər kəsin silahı
əlində idi.
12 Kahin şahzadəni irəli çıxartdı və tacı başına
qoyub şəhadətnaməni ona verdi. Onu padşah ol-
maq üçün məsh etdilər və əl çalıb «Yaşasın padşah!»
dedilər.

---

* **11:4** Çıx. 30:11-16; Lev. 27:1-25

13 Atalya mühafizəçilərin və xalqın səsini
eşidəndə xalqın yanına, Rəbbin məbədinə gəldi.
14 O baxıb gördü ki, padşah qaydaya görə sütunun
yanında dayanmış, rəislər və kərənay çalanlar da
padşahın yanındadır. Bütün ölkə xalqı sevinərək
kərənay çalırdı. Atalya paltarını cırıb bağırdı:
«Xəyanət! Xəyanət!»
15 Kahin Yehoyada qoşun üçün cavabdeh
olan yüzbaşılara əmr edib dedi: «Onu cərgələrin
arasından çıxarın və dalınca gələni qılıncla
öldürün». Çünki kahin «qoy o, Rəbbin məbədində
öldürülməsin» demişdi.
16 * Atalyanı tutdular, onu atların girdiyi dar-
vazadan saraya gətirdilər və orada öldürüldü.
17 Yehoyada Rəbb ilə padşah və xalq arasında əhd
kəsdi ki, onlar Rəbbin xalqı olsun. O, padşahla xalq
arasında da əhd kəsdi.
18 Bütün ölkə xalqı Baal məbədinə getdi. Onu
dağıdıb qurbangahlarını və bütlərini parça-parça
etdilər, Baal kahini Mattanı qurbangahların
önündə öldürdülər. Kahin Rəbbin məbədinə
gözətçilər qoydu.
19 O, yüzbaşıları, Karyalıları, mühafizəçiləri,
bütün ölkə xalqını özü ilə götürdü. Onlar padşahı
Rəbbin məbədindən düşürtdülər və mühafizəçilər
darvazasının yolu ilə saraya gəldilər. Yoaş
padşahların taxtında oturdu.
20 Bütün ölkə xalqı sevindi və şəhər sakitləşdi.
Çünki Atalyanı padşah sarayında qılıncla
öldürmüşdülər.

* **11:16** Lev. 7:7

### *Yəhuda padşahı Yoaş (2Saln. 24:1-27)*

21 Yoaş padşah olduğu vaxt yeddi yaşında idi.

# 12

1 Yehunun padşahlığının yeddinci ilində Yoaş
padşah oldu və Yerusəlimdə qırx il padşahlıq etdi.
Anası Beer-Şevadan olub adı Sivya idi.
2 Kahin Yehoyada Yoaşı öyrətdiyi dövr ərzində
Rəbbin gözündə doğru olan işlər etdi.
3 Ancaq səcdəgahlar aradan qaldırılmadı, xalq
hələ səcdəgahlarda qurban gətirir və buxur
yandırırdı.

4 Yoaş kahinlərə dedi: «Müqəddəs şeylər kimi
Rəbbin məbədinə gətirilən gümüşü, siyahıyaalma
zamanı toplanmış gümüşü, hər kəsin öz canı
əvəzinə verdiyi gümüşü və Rəbbin məbədinə
gətirmək üçün hər kəsin ürəyi istədiyi qədər
verdiyi gümüşün hamısını
5 kahinlərin hər biri öz xəzinədarından götürsün
və məbəddə harada uçuq bir yer varsa, o uçuqları
özləri təmir etsin».
6 Ancaq padşah Yoaşın padşahlığının iyirmi
üçüncü ilində kahinlər hələ məbədin uçuqlarını
təmir etməmişdilər.
7 Padşah Yoaş kahin Yehoyadanı və o biri
kahinləri çağırıb onlara dedi: «Nə üçün siz
məbədin uçuqlarını təmir etmirsiniz? İndi daha
xəzinədarlarınızdan özünüz üçün gümüş almayın,
qoy bu gümüş məbədin uçuqlarının təmiri üçün
verilsin».

8 Kahinlər razı oldular ki, daha xalqdan gümüş
almasınlar və məbədin uçuqlarını da özləri təmir
etməsinlər.
9 Kahin Yehoyada bir sandıq götürdü və onun
qapağında dəlik açdı. Onu qurbangahın yanına,
Rəbbin məbədinə girən yerdə sağ tərəfə qoydu.
Astana keşikçisi olan kahinlər Rəbbin məbədinə
gətirilən gümüşün hamısını oraya qoyardı.
10 Sandıqda çoxlu gümüş olduğunu görəndə
padşahın mirzəsi və baş kahin gələrək Rəbbin
məbədində tapılan gümüşü torbalara doldurub
tərəzidə çəkirdilər.
11 Çəkilən gümüşü Rəbbin məbədinin işinə
nəzarət edən rəislərə verirdilər. Onlar da bunu
Rəbbin məbədində işləyən dülgərlərə, ustalara,
12 bənnalara, daşyonanlara, Rəbbin məbədinin
uçuqlarını təmir etmək üçün taxta və yonulmuş
daşlar satın alan adamlara verir və məbədin bütün
təmir işlərinə xərcləyirdilər.
13 Ancaq Rəbbin məbədinə gətirilmiş gümüşdən
məbəd üçün gümüş kasalar, maqqaşlar, piyalələr,
kərənaylar və qızıl yaxud gümüş qablar
düzəldilmirdi.
14 * Çünki gümüşü iş görənlərə verirdilər və
onunla Rəbbin məbədini təmir edirdilər.
15 İş görənlərə vermək üçün əllərinə gümüş
verdikləri adamlardan hesabat istəmirdilər, çünki
onlar sədaqətlə çalışırdılar.
16 Təqsir təqdimlərinin və günah təqdimlərinin
gümüşü Rəbbin məbədinə gətirilmədi, çünki o,
kahinlərin idi.

* **12:14** 2Pad. 2:12

17 O vaxt Aram padşahı Xazael gəldi və Qata
hücum edib oranı aldı. Sonra o, Yerusəlimə hücum
etməyə yönəldi.
18 Yəhuda padşahı Yoaş babaları olan Yəhuda
padşahları Yehoşafatın, Yehoramın və Axazyanın
təqdis etdiyi bütün şeyləri, özünün təqdis etdiyi
şeyləri, Rəbbin məbədinin və sarayın xəzinələrində
tapılan bütün qızılı götürüb Aram padşahı Xazaelə
göndərdi. O da Yerusəlimdən geri çəkildi.
19 Yoaşın qalan işləri və etdiyi hər şey barədə
Yəhuda padşahlarının salnamələr kitabında
yazılmışdır.
20 Əyanları qalxıb ona qəsd hazırladılar və Sillaya
enən yoldakı Bet-Milloda Yoaşı vurdular.
21 Onu vuranlar əyanları Şimeat oğlu Yozakar və
Şomer oğlu Yehozavad idi. Yoaş ataları ilə uyudu
və onu Davudun şəhərində, atalarının yanında
basdırdılar. Onun yerinə oğlu Amasya padşah oldu.

# 13

### *İsrail padşahı Yehoaxaz*

1 Yəhuda padşahı Axazya oğlu Yoaşın
padşahlığının iyirmi üçüncü ilində Yehunun oğlu
Yehoaxaz Samariyada İsrail üzərində padşah oldu
və on yeddi il padşahlıq etdi.
2 O, Rəbbin gözündə pis olan işlər etdi və Nevat
oğlu Yarovamın İsrailə etdirdiyi günahların dalınca
getdi, onlardan əl çəkmədi.
3 İsrailə qarşı Rəbbin qəzəbi alovlandı və Yehoax-
azın bütün ömrü boyu onları Aram padşahı Xaza-
elin və Xazaelin oğlu Ben-Hadadın əlinə verdi.

4 Yehoaxaz Rəbbə üz tutub yalvardı və Rəbb onu
eşitdi, çünki İsraillilərin əzabını və Aram padşahının
onlara necə zülm etdiyini gördü.
5 Rəbb İsraillilərə bir xilaskar verdi və onlar
Aramın əsarəti altından çıxdılar. İsraillilər əvvəlki
kimi öz torpaqlarında yaşadılar.
6 Ancaq onlar Yarovam nəslinin İsrailə etdirdiyi
günahlardan əl çəkmədilər və bu günahların dalınca
getdilər, Aşera bütü də Samariyada qalırdı.
7 Əlli süvaridən, on döyüş arabasından və on min
piyadadan başqa, Yehoaxazın daha qoşunu qal-
madı, çünki Aram padşahı onları xırmanda toz kimi
əzmişdi.
8 Yehoaxazın qalan işləri, etdiyi hər şey və
onun hünəri barədə İsrail padşahlarının salnamələr
kitabında yazılmışdır.
9 Yehoaxaz ataları ilə uyudu və onu Samariyada
basdırdılar. Onun yerinə oğlu Yoaş padşah oldu.

## *İsrail padşahı Yoaş*

10 Yəhuda padşahı Yoaşın padşahlığının otuz yed-
dinci ilində Yehoaxaz oğlu Yoaş Samariyada İsrail
üzərində padşah oldu və on altı il padşahlıq etdi.
11 O, Rəbbin gözündə pis olan işlər etdi, Nevat
oğlu Yarovamın İsrailə etdirdiyi bütün günahlardan
əl çəkmədi və bu günahların dalınca getdi.
12 Yoaşın qalan işləri, etdiyi hər şey və Yəhuda
padşahı Amasya ilə döyüşdə göstərdiyi hünər
barədə İsrail padşahlarının salnamələr kitabında
yazılmışdır.

13 Yoaş ataları ilə uyudu və onun taxtında
Yarovam oturdu. Yoaş Samariyada İsrail
padşahlarının yanında basdırıldı.

### *Elişanın ölümü və Yoaşın qələbələri*

14 Elişa ölümcül halda xəstələnmişdi. İsrail
padşahı Yoaş ona baş çəkmək üçün yanına gəldi və
ağlayıb dedi: «Atam, ey atam! İsrailin arabası və
atlıları!»
15 Elişa ona dedi: «Kaman və oxlar götür». O,
kaman və oxlar götürdü.
16 Elişa İsrail padşahına dedi: «Kamanı çək». O,
kamanı çəkdi. Elişa əllərini padşahın əlləri üstünə
qoydu.
17 Sonra dedi: «Şərq tərəfdəki pəncərəni aç». O
açdı. Elişa «oxu at» dedi. O atdı. Elişa dedi:
«Bu, Rəbbin qurtuluş oxu, Arama qarşı qurtu-
luş oxudur! Sən Aramlıları Afeqdə axıra qədər
qıracaqsan».
18 Sonra dedi: «Oxları götür». O götürdü. Elişa
İsrail padşahına dedi: «Yerə vur». O, üç dəfə vurub
dayandı.
19 Allah adamı ona qəzəblənib dedi: «Beş-altı dəfə
vurmalı idin. Onda Aramlıları axıra qədər qıra
bilərdin, indi isə onları üç dəfə qıracaqsan».
20 Elişa öldü və onu basdırdılar. Moavlıların
dəstələri hər bahar fəslində ölkəyə gələrdi.
21 Bir dəfə bir nəfəri basdırarkən adamlar bir
dəstə gördülər və ölünü Elişanın qəbrinə atdılar. Ölü
düşüb Elişanın sümüklərinə toxunan kimi dirildi və
ayaq üstə qalxdı.
22 Yehoaxazın bütün ömrü boyu Aram padşahı
Xazael İsraillilərə zülm etdi.

23 Ancaq Rəbb İbrahim, İshaq və Yaqubla etdiyi
əhdindən ötrü lütf və mərhəmət göstərib onlara
tərəf üz tutdu, onları məhv etmək istəmədi və in-
diyə qədər Öz hüzurundan kənar etmədi.
24 Aram padşahı Xazael öldü və yerinə oğlu Ben-
Hadad padşah oldu.
25 Yehoaxaz oğlu Yoaş müharibədə atası Yehoax-
azın əlindən alınan şəhərləri Xazaelin oğlu Ben-
Hadadın əlindən aldı. Yoaş Aramlıları üç dəfə qırıb
İsrail şəhərlərini geri aldı.

# 14

### *Yəhuda padşahı Amasya (2Saln. 25:1-24)*

1 İsrail padşahı Yehoaxaz oğlu Yoaşın
padşahlığının ikinci ilində Yəhuda padşahı Yoaşın
oğlu Amasya padşah oldu.
2 O, padşah olduğu vaxt iyirmi beş yaşında idi və
Yerusəlimdə iyirmi doqquz il padşahlıq etdi. Anası
Yerusəlimdən olub adı Yehoaddan idi.
3 Amasya atası Yoaşın etdiyi kimi Rəbbin
gözündə doğru olan işlər etdi, amma babası Davud
kimi deyildi.
4 Lakin səcdəgahlar aradan qaldırılmadı, xalq
hələ səcdəgahlarda qurban gətirir və buxur
yandırırdı.
5 Padşahlıq əlində möhkəmlənəndə Amasya
padşah olan atasını öldürmüş əyanları öldürdü.
6 * Ancaq Musanın Qanun kitabında yazıldığı
kimi qatillərin oğullarını öldürmədi, çünki Rəbb əmr

* **14:6** Qanun. 24:16; 2Saln. 25:4; Yez. 18:20

edib demişdi: «Oğula görə ata, ataya görə oğul
öldürülməsin, hər kəs öz günahına görə ölməlidir».
7 O, on min nəfər Edomlunu Duz dərəsində qırıb
Selanı müharibə ilə aldı. Onun adını Yoqteel qoydu
və bu günə qədər də belədir.

8 O vaxt Amasya İsrail padşahı Yehu oğlu
Yehoaxaz oğlu Yoaşın yanına qasidlər göndərib
dedi: «Gəl, qarşılaşaq».
9 İsrail padşahı Yoaş Yəhuda padşahı Amasyaya
cavab verib dedi: «Livanda olan qanqal oradakı
sidr ağacına xəbər göndərib "qızını oğluma arvad
olmaq üçün ver" dedi. Amma Livanda olan bir çöl
heyvanı keçərək qanqalı tapdaladı.
10 Əlbəttə, sən Edomluları qırdın və ürəyin
qürurlandı. Bununla öyün və öz evində otur. Nə
üçün sən Yəhudalılarla birlikdə bəlaya düşmək
üçün münaqişəyə atılırsan?»

11 Ancaq Amasya qulaq asmadı. İsrail padşahı
Yoaş çıxıb Yəhuda padşahı Amasya ilə Yəhudada
olan Bet-Şemeşdə qarşılaşdı.
12 Yəhudalılar İsraillilərin önündə məğlub oldular
və hər kəs öz evinə qaçdı.
13 İsrail padşahı Yoaş Yəhuda padşahı Axazya
oğlu Yoaş oğlu Amasyanı Bet-Şemeşdə tutdu.
Yoaş Yerusəlimə gəlib şəhər divarının Efrayim
darvazasından Künc darvazasına qədər dörd yüz
qulacını uçurdu.
14 Rəbbin məbədində və sarayın xəzinələrində
tapılan bütün qızıl-gümüşü, bütün əşyaları apardı.
Girov olaraq tutduğu adamları da götürüb
Samariyaya qayıtdı.

15 Yoaşın qalan işləri, onun hünəri və Yəhuda
padşahı Amasya ilə necə vuruşduğu barədə İsrail
padşahlarının salnamələr kitabında yazılmışdır.
16 Yoaş ataları ilə uyudu və Samariyada İsrail
padşahlarının yanında basdırıldı. Onun yerinə oğlu
Yarovam padşah oldu.

17 Yəhuda padşahı Yoaş oğlu Amasya İsrail
padşahı Yehoaxaz oğlu Yoaşın ölümündən sonra
on beş il yaşadı.
18 Amasyanın qalan işləri barədə Yəhuda
padşahlarının salnamələr kitabında yazılmışdır.
19 Yerusəlimdə Amasyaya qəsd hazırladılar.
O, Lakişə qaçdı. Lakişə onun dalınca adamlar
göndərib orada onu öldürdülər.
20 Onu atlar üstündə gətirib Yerusəlimdə,
Davudun şəhərində, atalarının yanında basdırdılar.
21 Bütün Yəhuda xalqı on altı yaşlı Azaryanı *
götürüb atası Amasyanın yerinə padşah etdi.
22 Padşah ataları ilə uyuduqdan sonra o, Elatı
Yəhudaya qaytarıb oranı tikdi.

### *İsrail padşahı II Yarovam*

23 Yəhuda padşahı Yoaş oğlu Amasyanın
padşahlığının on beşinci ilində Yoaş oğlu Yarovam
Samariyada İsrail üzərində padşah oldu və qırx bir
il padşahlıq etdi.
24 O, Rəbbin gözündə pis olan işlər etdi və Nevat
oğlu Yarovamın İsrailə etdirdiyi bütün günahlardan
əl çəkmədi.

* **14:21** *Azarya* – başqa adı Uzziya. Bax: 2Pad. 15:13.

25 * Qulu Qat-Xeferli peyğəmbər Amittay oğlu
Yunus vasitəsilə İsrailin Allahı Rəbbin söylədiyi sözə
görə o, Xamat keçidindən Arava dənizinə qədər
İsrail torpaqlarını geri aldı.
26 Çünki Rəbb İsraillilərin acı fəlakətini görmüşdü:
istər kölə olsun, istər azad, İsraillilərə kömək edən
bir kəs olmadı.
27 Rəbb heç vaxt İsrailin adını göylər altından
siləcəyini deməmişdi, buna görə də Yoaş oğlu
Yarovamın vasitəsilə onlara qurtuluş verdi.
28 Yarovamın qalan işləri, etdiyi hər şey, onun
hünəri, necə vuruşduğu və əvvəllər Yəhudaya
məxsus olan Dəməşqi və Xamatı İsrailə necə
qaytarması barədə İsrail padşahlarının salnamələr
kitabında yazılmışdır.
29 Yarovam ataları İsrail padşahları ilə uyudu və
yerinə oğlu Zəkəriyyə padşah oldu.

# 15

### *Yəhuda padşahı Azarya (2Saln. 26:1-23)*

1 İsrail padşahı Yarovamın padşahlığının iyirmi
yeddinci ilində Yəhuda padşahı Amasyanın oğlu
Azarya padşah oldu.
2 O padşah olduğu vaxt on altı yaşında idi
və Yerusəlimdə əlli iki il padşahlıq etdi. Anası
Yerusəlimdən olub adı Yekolya idi.
3 Azarya atası Amasyanın etdiyi kimi Rəbbin
gözündə doğru olan işlər etdi.

* **14:25** Yun. 1:1

4 Lakin səcdəgahlar aradan qaldırılmadı, xalq
hələ səcdəgahlarda qurban gətirir və buxur
yandırırdı.
5 Rəbb padşaha bəla göndərdi, o, ölüm gününə
qədər cüzamlı oldu. Padşah başqa bir evdə
yaşayırdı. Onun oğlu Yotam isə saraya başçılıq
edərək ölkə xalqına hökm edirdi.
6 Azaryanın qalan işləri və etdiyi hər şey
barədə Yəhuda padşahlarının salnamələr kitabında
yazılmışdır.
7 * Azarya ataları ilə uyudu və onu Davudun
şəhərində, atalarının yanında basdırdılar. Onun
yerinə oğlu Yotam padşah oldu.

### *İsrail padşahı Zəkəriyyə*

8 Yəhuda padşahı Azaryanın padşahlığının
otuz səkkizinci ilində Yarovam oğlu Zəkəriyyə
Samariyada İsrail üzərində padşah oldu və altı ay
padşahlıq etdi.
9 O, atalarının etdiyi kimi Rəbbin gözündə pis
olan işlər etdi və Nevat oğlu Yarovamın İsrailə et-
dirdiyi günahlardan əl çəkmədi.
10 Yaveş oğlu Şallum ona qəsd hazırladı, onu
xalqın qabağında vurub öldürdü və yerinə padşah
oldu.
11 Zəkəriyyənin qalan işləri barədə İsrail
padşahlarının salnamələr kitabında yazılmışdır.
12 * Rəbbin Yehuya «dördüncü nəslinə qədər
sənin övladların İsrail taxtında oturacaqlar» deyə
söylədiyi sözə görə belə oldu.

---

* **15:7** Yeş. 6:1 * **15:12** 2Pad. 10:30

### *İsrail padşahı Şallum*

13 Yəhuda padşahı Uzziyanın * padşahlığının otuz
doqquzuncu ilində Yaveş oğlu Şallum padşah oldu
və Samariyada bir ay padşahlıq etdi.
14 Qadi oğlu Menaxem Tirsadan çıxıb
Samariyaya gəldi. Samariyada Yaveş oğlu Şallumu
vurub öldürdü və yerinə padşah oldu.
15 Şallumun qalan işləri və necə qəsd hazırladığı
barədə İsrail padşahlarının salnamələr kitabında
yazılmışdır.
16 O vaxt Menaxem Tirsadan çıxıb Tifsahda və
onun ətrafında yaşayanların hamısını qırdı. Dar-
vazaları onun üzünə açmadıqlarına görə onları
məhv etdi və orada olan bütün hamilə qadınları
doğradı.

### *İsrail padşahı Menaxem*

17 Yəhuda padşahı Azaryanın padşahlığının
otuz doqquzuncu ilində Qadi oğlu Menaxem
İsrail üzərində padşah oldu və Samariyada on il
padşahlıq etdi.
18 O, Rəbbin gözündə pis olan işlər etdi və bütün
ömrü boyu Nevat oğlu Yarovamın İsrailə etdirdiyi
günahlardan əl çəkmədi.
19 Aşşur padşahı Pul † ölkəyə hücum etdi.
Menaxem ona min talant gümüş verdi ki,
padşahlığını möhkəmləndirmək üçün Pul onunla
müttəfiq olsun.
20 Menaxem Aşşur padşahına vermək üçün
İsrailin varlı adamlarının hamısından gümüş yığdı,

---

* **15:13** *Uzziya* – Azaryanın başqa adı. Bax: 2Pad. 14:21; 15:26.

† **15:19** *Pul* – Tiqlat-Pileserin başqa adı. Bax: 1Saln. 5:26.

onların hər birindən əlli şekel gümüş aldı. Onda Aşşur padşahı bu ölkədə qalmayıb geri qayıtdı.
21 Menaxemin qalan işləri və etdiyi hər şey barədə İsrail padşahlarının salnamələr kitabında yazılmışdır.
22 Menaxem ataları ilə uyudu və yerinə oğlu Peqahya padşah oldu.

### *İsrail padşahı Peqahya*

23 Yəhuda padşahı Azaryanın padşahlığının əllinci ilində Menaxem oğlu Peqahya Samariyada İsrail üzərində padşah oldu və iki il padşahlıq etdi.
24 O, Rəbbin gözündə pis olan işlər etdi və Nevat oğlu Yarovamın İsrailə etdirdiyi günahlardan əl çəkmədi.
25 Peqahyanın mühafizəçilər rəisi Remalya oğlu Peqah ona qəsd hazırladı, Gileadlılardan əlli nəfərin köməyi ilə Samariyada sarayın qalasında onu Arqov və Arye ilə birgə vurub öldürdü və onun yerinə padşah oldu.
26 Peqahyanın qalan işləri və etdiyi hər şey barədə İsrail padşahlarının salnamələr kitabında yazılmışdır.

### *İsrail padşahı Peqah*

27 Yəhuda padşahı Azaryanın padşahlığının əlli ikinci ilində Remalya oğlu Peqah Samariyada İsrail üzərində padşah oldu və iyirmi il padşahlıq etdi.
28 O, Rəbbin gözündə pis olan işlər etdi və Nevat oğlu Yarovamın İsrailə etdirdiyi günahlardan əl çəkmədi.

29 İsrail padşahı Peqahın dövründə Aşşur padşahı
Tiqlat-Pileser gəlib İyonu, Avel-Bet-Maakanı,
Yanoahı, Qedeşi, Xasoru, Gileadı, Qalileyanı və
bütün Naftali torpağını tutdu, əhalisini də Aşşura
sürgün etdi.
30 Ela oğlu Huşə Remalya oğlu Peqaha qəsd
hazırladı, onu vurub öldürdü və Uzziya oğlu
Yotamın padşahlığının iyirminci ilində onun
yerinə padşah oldu.
31 Peqahın qalan işləri və etdiyi hər şey
barədə İsrail padşahlarının salnamələr kitabında
yazılmışdır.

### *Yəhuda padşahı Yotam (2Saln. 27:1-9)*

32 İsrail padşahı Remalya oğlu Peqahın
padşahlığının ikinci ilində Uzziya oğlu Yotam
Yəhuda üzərində padşah oldu.
33 O, padşah olduğu vaxt iyirmi beş yaşında idi və
Yerusəlimdə on altı il padşahlıq etdi. Anası Sadoq
qızı Yeruşa idi.
34 Yotam atası Uzziyanın etdiyi kimi Rəbbin
gözündə doğru olan işlər etdi.
35 Lakin səcdəgahlar aradan qaldırılmadı,
xalq hələ səcdəgahlarda qurban gətirir və
buxur yandırırdı. O, Rəbbin məbədinin yuxarı
darvazasını düzəltdi.
36 Yotamın qalan işləri və etdiyi hər şey barədə
Yəhuda padşahlarının salnamələr kitabında
yazılmışdır.
37 Rəbb o dövrdə Aram padşahı Resini və
Remalya oğlu Peqahı Yəhudalıların üstünə
göndərməyə başladı.

38 Yotam ataları ilə uyudu və babası Davudun
şəhərində, atalarının yanında basdırıldı. Onun
yerinə oğlu Axaz padşah oldu.

# 16

*Yəhuda padşahı Axaz*
*(2Saln. 28:1-27)*

1 Remalya oğlu Peqahın padşahlığının on yed-
dinci ilində Yotam oğlu Axaz Yəhuda üzərində
padşah oldu.
2 Axaz padşah olduğu vaxt iyirmi yaşında idi və
Yerusəlimdə on altı il padşahlıq etdi. O, babası
Davuddan fərqli olaraq Allahı Rəbbin gözündə
doğru olan işlər etmədi.
3 * Axaz İsrail padşahlarının yolu ilə getdi
və Rəbbin İsrail övladlarının önündən qovduğu
millətlərin iyrənc əməllərini edərək oğlunu oda
qurban verdi.
4 O, səcdəgahlarda, təpələr üstündə və hər kölgəli
ağac altında qurban gətirir və buxur yandırırdı.
5 * Onda Aram padşahı Resin və İsrail padşahı
Remalya oğlu Peqah Yerusəlimin üzərinə hücum et-
dilər və Axazı mühasirəyə aldılar, ancaq onu məğlub
edə bilmədilər.
6 O vaxt Aram padşahı Resin Elatı Arama
qaytardı və Yəhudalıları Elatdan qovub çıxartdı.
Edomlular Elata girdilər və bu günə qədər orada
yaşayırlar.
7 Axaz Aşşur padşahı Tiqlat-Pileserin yanına
qasidlər göndərib dedi: «Mən sənin qulun və

* **16:3** Qanun. 12:31 * **16:5** Yeş. 7:1

nökərinəm. Gəl, məni üstümə hücum edən Aram və
İsrail padşahlarının əlindən qurtar».
8 Axaz Rəbbin məbədində və sarayın
xəzinələrində tapılan qızıl-gümüşü götürüb Aşşur
padşahına hədiyyə göndərdi.
9 Aşşur padşahı ona qulaq asdı: Dəməşqə hücum
edib onu aldı, əhalisini Qirə sürgün etdi və Resini
öldürdü.
10 Padşah Axaz Aşşur padşahı Tiqlat-Pileseri
qarşılamaq üçün Dəməşqə getdi. O, Dəməşqdə
olan qurbangahı gördü, qurbangahın bütün quru-
luşunu və təsvirini kahin Uriyaya göndərdi.
11 Kahin Uriya padşah Axazın Dəməşqdən
göndərdiyi bütün şeylərə görə bir qurbangah
düzəltdi. O, padşah Dəməşqdən qayıdana qədər
bunu etdi.
12 Padşah Dəməşqdən qayıdıb qurbangahı gördü.
O yaxınlaşıb qurbangahın üstünə qalxdı.
13 Qurbangahın üstündə öz yandırma qurbanını
və taxıl təqdimini yandırdı, tökmə təqdimini tökdü
və ünsiyyət qurbanlarının qanını oraya səpdi.
14 * Rəbbin önündə olan tunc qurbangahı
məbədin qabaq tərəfindən, öz qurbangahı ilə
Rəbbin məbədi arasından gətirdi və onu öz
qurbangahının şimal tərəfinə qoydu.
15 Padşah Axaz kahin Uriyaya əmr edib dedi:
«Hər gün səhərin yandırma qurbanını, axşamın
taxıl təqdimini, padşahın yandırma qurbanını və
taxıl təqdimini, bütün ölkə xalqının yandırma qur-
banını, taxıl təqdimini və tökmə təqdimini böyük
qurbangahın üstündə yandır. Yandırma qurban-
larının və başqa qurbanların bütün qanını onun

* **16:14** Çıx. 27:1-2; 2Saln. 4:1

üstünə səp. Ancaq tunc qurbangah soraq etmək
üçün mənim olacaq».
16 Kahin Uriya da padşah Axazın əmr etdiyi hər
şeyi yerinə yetirdi.
17 * Padşah Axaz dayaqların yan lövhələrini kəsib
dayaqların üstündən ləyənləri götürdü. Hovuzu
altında olan tunc buğaların üstündən qaldırıb bir
daş səkinin üstünə qoydu.
18 Şənbə günü üçün məbəddə düzəldilmiş bağlı
yeri və padşahın bayırdakı giriş yerini Aşşur
padşahından ötrü Rəbbin məbədindən götürdü.
19 Axazın qalan işləri barədə Yəhuda
padşahlarının salnamələr kitabında yazılmışdır.
20 * Axaz ataları ilə uyudu və Davudun
şəhərində, atalarının yanında basdırıldı. Onun
yerinə oğlu Xizqiya padşah oldu.

# 17

*İsrailin son padşahı Huşə*

1 Yəhuda padşahı Axazın padşahlığının on ikinci
ilində Ela oğlu Huşə Samariyada İsrail üzərində
padşah oldu və doqquz il padşahlıq etdi.
2 O, Rəbbin gözündə pis olan işlər etdi, ancaq
özündən əvvəlki İsrail padşahları kimi deyildi.
3 Aşşur padşahı Şalmaneser Huşənin üstünə hücum
etmişdi və Huşə ona tabe olub xərac vermişdi.
4 Amma Aşşur padşahı Huşənin xəyanət etdiyini
gördü, çünki o həm Misir padşahı Sonun yanına
qasidlər göndərmişdi, həm də hər il olduğu kimi

* **16:17** 1Pad. 7:23-39; 2Saln. 4:2-6 * **16:20** Yeş. 14:28

Aşşur padşahına xərac verməmişdi. Buna görə də
Aşşur padşahı onu tutub zindana saldı.

### *Samariyanın süqutu*

5 Aşşur padşahı bütün ölkəyə hücum etdi. O,
Samariyaya yaxınlaşdı və oranı üç il mühasirədə
saxladı.
6 Huşənin padşahlığının doqquzuncu ilində
Aşşur padşahı Samariyanı aldı və İsraillilləri Aşşur
torpağına sürgün etdi. Onları Xalahda, Qozan
çayı sahilindəki Xavorda və Midiya şəhərlərində
yerləşdirdi.
7 Bu iş ona görə İsrail övladlarının başına gəldi ki,
onları Misir padşahı fironun əsarəti altından, Misir
torpağından çıxaran özlərinin Allahı Rəbbə qarşı
günah etmişdilər. İsrail övladları başqa allahlara
səcdə etmişdilər.
8 Onların önündən Rəbbin qovduğu millətlərin
adətlərinə və İsrail padşahlarının qoyduğu qanun-
lara görə davranmışdılar.
9 Gizlində özlərinin Allahı Rəbbə qarşı doğru ol-
mayan işlər etmişdilər. Məskən saldıqları hər yerdə
keşikçi qülləsindən qalalı şəhərə qədər özləri üçün
səcdəgahlar tikmişdilər.
10 * Hər hündür təpənin üstündə, hər kölgəli
ağacın altında sütunlar və Aşera bütləri qoymuşdular.
11 Onların önündən Rəbbin qovduğu
millətlərin etdiyi kimi bütün bu səcdəgahlarda
buxur yandırmış və pis işlər görüb Rəbbi
qəzəbləndirmişdilər.

---

* **17:10** 1Pad. 14:23

12 Rəbb onlara «belə etməyin» söylədiyinə baxmayaraq, onlar bütlərə qulluq etmişdilər.
13 Rəbb bütün peyğəmbərləri və görücüləri vasitəsilə İsraillilərə və Yəhudalılara xəbərdarlıq edib demişdi: «Pis yolunuzdan dönün. Atalarınıza buyurduğum və qullarım peyğəmbərlər vasitəsilə sizə öyrətdiyim Qanunda olan bütün əmrlərimə və qanunlarıma əməl edin».
14 Ancaq onlar bu sözlərə qulaq asmamışdılar və iman etməyən ataları kimi özlərinin Allahı Rəbbə boyun əyməmişdilər.
15 Onun qanunlarını, ataları ilə bağladığı əhdini və onlara etdiyi xəbərdarlıqları rədd etmişdilər. Boş şey dalınca gedib boş adamlar olmuşdular. Rəbb «ətrafınızdakı millətlər kimi etməyin» deyib əmr etdiyi halda onlar kimi davranmışdılar.
16 * Özlərinin Allahı Rəbbin bütün əmrlərindən üz döndərib iki tökmə dana bütü və Aşera bütü düzəltmişdilər, bütün səma cisimlərinə səcdə etmişdilər və Baala qulluq etmişdilər.
17 * Oğullarını və qızlarını oda qurban vermişdilər, falçılıq və baxıcılıq etmişdilər. Rəbbin gözündə pis olan işlərə özlərini təslim edib Onu qəzəbləndirmişdilər.
18 Buna görə də Rəbb İsraillilərə qəzəblənib onlardan üz döndərdi. Yalnız Yəhuda qəbiləsindən başqa heç biri qalmadı.
19 Yəhudalılar da özlərinin Allahı Rəbbin əmrlərinə əməl etməmişdilər və İsraillilərin qoyduğu adətlərlə davranmışdılar.

* **17:16** 1Pad. 12:28 * **17:17** Qanun. 18:10

20 Rəbb bütün İsrail nəslindən üz döndərərək onları alçaldıb soyğunçulara təslim etdi və nəhayət, onları hüzurundan kənara atdı.
21 Rəbb İsraili Davud sülaləsindən alıb ayırmışdı və İsraillilər Nevat oğlu Yarovamı padşah etmişdilər. Yarovam onları Rəbbin yolundan azdırmışdı və onlara böyük günahlar etdirmişdi.
22 İsrail övladları Yarovamın etdiyi bütün günahlara görə davranmışdılar və bu günahlardan əl çəkməmişdilər.
23 Rəbb Öz qulu olan bütün peyğəmbərlər vasitəsilə söylədiyi kimi, nəhayət, İsraillilərdən üz döndərdi. Onlar öz torpaqlarından Aşşur torpağına sürgün olundular və bu günə qədər belədir.

### *Aşşurluların Samariyaya yeni sakinlər köçürməsi*

24 Aşşur padşahı Babildən, Kutadan, Avvadan, Xamatdan və Sefarvayimdən adamlar gətirib İsrail övladlarının yerinə Samariyanın şəhərlərində yerləşdirdi. Onlar Samariyaya sahib oldular və oranın şəhərlərində yaşadılar.
25 Onlar orada yaşamağa başlayanda Rəbbə sitayiş etmirdilər. Rəbb də üstlərinə şirlər göndərdi və şirlər onları öldürməyə başladı.
26 Onlar Aşşur padşahına dedilər: «Sürgün edib Samariyanın şəhərlərində yerləşdirdiyin millətlər bu ölkə Allahının adətlərini bilmirlər. O Allah da üstlərinə şirlər göndərdi və şirlər onları öldürür, çünki bu adamlar ölkə Allahının adətlərini bilmirlər».
27 Aşşur padşahı əmr edib dedi: «Oradan sürgün etdiyiniz kahinlərdən birini geri qaytarın,

adamları ilə gedib orada yaşasın və ölkə Allahının adətlərini onlara öyrətsin».
28 Samariyadan sürgün etdikləri kahinlərdən biri gəlib Bet-Eldə yaşadı və Rəbbə necə sitayiş etməyi onlara öyrətməyə başladı.
29 Ancaq hər millət öz allahının bütünü düzəltdi. Onları yaşadıqları şəhərlərdə Samariyalıların səcdəgahlarda tikdikləri məbədlərə qoydular:
30 Babillilər Sukkot-Benot bütünü, Kutalılar Nerqal bütünü, Xamatlılar Aşima bütünü,
31 Avvalılar Nivxaz və Tartaq bütlərini düzəltdilər. Sefarvayimlilər isə oğullarını Sefarvayim allahları Adrammelek və Anammelek üçün odda yandırırdılar.
32 Onlar Rəbbə də sitayiş edirdilər. Səcdəgahların məbədlərində xidmət etmək üçün öz aralarından kahinlər seçib qoydular.
33 Onlar həm Rəbbə, həm də aralarından sürgün olunduqları millətlərin adətlərinə görə öz allahlarına sitayiş edirdilər.
34 * Onlar bu günə qədər də əvvəlki adətlərinə görə davranırlar və Rəbbə sitayiş etmirlər, adını İsrail qoyduğu Yaqubun nəslinə Rəbbin buyurduğu qaydalara, hökmlərə, qanunlara və əmrlərə əməl etmirlər.
35 * Rəbb Yaqub övladları ilə əhd etmişdi və onlara əmr edib demişdi: «Başqa allahlara sitayiş və səcdə etməyin, onlara qulluq edib qurban gətirməyin.
36 * Ancaq böyük qüdrəti və uzatdığı əli ilə sizi Misir torpağından çıxaran Rəbbə sitayiş və səcdə

---

* **17:34** Yar. 32:28; 35:10 * **17:35** Çıx. 20:5; Qanun. 5:9 * **17:36** Qanun. 6:13

edin, Ona qurban gətirin.
37 Sizin üçün yazdığı qaydalara, hökmlərə, qanunlara və əmrlərə həmişə diqqətlə əməl edin və başqa allahlara sitayiş etməyin.
38 Sizinlə bağladığım əhdi unutmayın. Başqa allahlara deyil,
39 yalnız Allahınız Rəbbə sitayiş etsəniz, O sizi bütün düşmənlərinizin əlindən qurtarar».
40 Ancaq onlar bu sözlərə qulaq asmadılar və bu günə qədər də özlərinin əvvəlki adətlərinə görə davranırlar.
41 Beləcə bu millətlər həm Rəbbə, həm də öz bütlərinə sitayiş edirdilər. Ataları necə edirdisə, oğulları və nəvələri də bu günə qədər belə edirlər.

# 18

### *Yəhuda padşahı Xizqiya (2Saln. 29:1-2; 31:1)*

1 İsrail padşahı Ela oğlu Huşənin padşahlığının üçüncü ilində Axaz oğlu Xizqiya Yəhuda üzərində padşah oldu.
2 O, padşah olduğu vaxt iyirmi beş yaşında idi və Yerusəlimdə iyirmi doqquz il padşahlıq etdi. Anası Zəkəriyyə qızı Avi idi.
3 Xizqiya babası Davudun etdiyi kimi Rəbbin gözündə doğru olan işlər etdi.
4 * O, səcdəgahları aradan qaldırdı, sütunları parça-parça etdi və Aşera bütünü kəsdi. Musanın düzəltdiyi tunc ilanı əzib parçaladı, çünki İsraillilər

---

* **18:4** Say. 21:9

onun adını Nexuştan * qoyub o vaxta qədər ona buxur yandırırdılar.

5 Xizqiya İsrailin Allahı Rəbbə güvəndi. Özündən
əvvəl və sonra olan bütün Yəhuda padşahları
arasında onun kimisi olmadı.
6 O, Rəbdən yapışıb Onun yolundan dönmədi və
Rəbbin Musaya verdiyi əmrlərinə əməl etdi.
7 Rəbb də onunla idi və hara gedirdisə, uğur
qazanırdı. Xizqiya Aşşur padşahına qulluq
etməkdən boyun qaçırdı.
8 Qəzzədə və onun sərhədləri boyu, keşikçi
qülləsindən qalalı şəhərə qədər hər yerdə yaşayan
Filiştliləri qırdı.

9 Xizqiyanın padşahlığının dördüncü ilində, yəni
İsrail padşahı Ela oğlu Huşənin padşahlığının yeddinci ilində Aşşur padşahı Şalmaneser Samariya
üzərinə hücum edib oranı mühasirəyə aldı.
10 Üç ildən sonra şəhəri aldılar. Xizqiyanın
padşahlığının altıncı ilində, yəni İsrail padşahı Huşənin padşahlığının doqquzuncu ilində Samariya alındı.
11 Aşşur padşahı İsraillilləri Aşşur torpağına sürgün
etdi və onları Xalahda, Qozan çayı sahilindəki Xavorda və Midiya şəhərlərində yerləşdirdi.
12 Bu iş ona görə onların başına gəldi ki, özlərinin
Allahı Rəbbin sözünə qulaq asmamışdılar və Onun əhdini, Rəbbin qulu Musanın əmr etdiyi hər şeyi pozmuşdular. Onlar buna nə qulaq asmış, nə də əməl etmişdilər.

* **18:4** *Nexuştan* – ibrani dilində *tunc parçası.*

### *Aşşurluların Yəhudaya hücum etməsi (2Saln. 32:1-19; Yeş. 36:1-22)*

13 Xizqiyanın padşahlığının on dördüncü ilində
Aşşur padşahı Sanxeriv Yəhudanın bütün qalalı
şəhərlərinə hücum edib onları aldı.
14 Yəhuda padşahı Xizqiya Lakişə, Aşşur
padşahına xəbər göndərib dedi: «Təqsirkaram,
üzərimdən geri çəkil, məndən nə qədər xərac tələb
etsən, verərəm». Aşşur padşahı Yəhuda padşahı
Xizqiyadan xərac olaraq otuz talant qızıl və üç yüz
talant gümüş tələb etdi.
15 Xizqiya Rəbbin məbədində və sarayın
xəzinələrində tapılan gümüşün hamısını verdi.
16 O vaxt Yəhuda padşahı Xizqiya Rəbbin
məbədinin qapılarının və sütunlarının üstünə
özünün örtdüyü qızılı çıxartdı və onu Aşşur
padşahına verdi.

### *Aşşur padşahının Yerusəlimi hədələməsi*

17 Aşşur padşahı öz ordu başçısını, baş məmuru
və baş vəzirini böyük qoşunla Lakişdən Yerusəlimə,
padşah Xizqiyanın yanına göndərdi. Onlar çıxıb
Yerusəlimə gəldilər və Mahudbasan tarlası yoluna,
yuxarı hovuzun su kəmərinin yanına qalxıb orada
dayandılar.
18 Onlar padşahı çağırdılar. Saray rəisi Xilqiya
oğlu Elyaqim, mirzə Şevna və salnaməçi Asəf oğlu
Yoah onların qabağına çıxdı.
19 Baş vəzir onlara dedi: «İndi Xizqiyaya söyləyin
ki, böyük padşah – Aşşur padşahı belə deyir: “Nəyə
güvənirsən?

20 Sən yalnız boş sözlər deyirsən, müharibə üçün
tədbir və güc lazımdır. İndi sən kimə güvənirsən ki,
mənə qarşı çıxırsan?
21 * Yəqin sən əzilmiş qamış çubuğuna – Misirə
güvənirsən. Bil ki, kim ona söykənsə, əlinə batıb
deşər. Misir padşahı firon ona güvənənlərin hamısı
üçün belədir.
22 Bəlkə mənə ‹biz Allahımız Rəbbə güvənirik›
söyləyəsiniz. Məgər bu həmin Allah deyildi ki,
Xizqiya Onun səcdəgahlarını və qurbangahlarını
aradan qaldırdı? O, Yəhudalılara və Yerusəlimlilərə
də ‹yalnız Yerusəlimdəki bu qurbangahın önündə
səcdə edin› demədimi?
23 İndi ağam Aşşur padşahı ilə mərcə gəl: əgər
sən iki min süvari tapa bilsən, mən sənə o qədər at
verərəm.
24 Görək sən ağamın kiçik qulu olan bir başçını
necə məğlub edəcəksən. Sən hələ döyüş arabaları və
süvarilər almaq üçün Misirə güvənirsən!
25 Məgər indi mən bu yeri viran etməyə Rəbbin
istəyi ilə gəlmədimmi? Rəbb mənə ‹bu ölkəyə
hücum edib onu viran et› dedi”».
26 Xilqiya oğlu Elyaqim, Şevna və Yoah baş vəzirə
dedi: «Xahiş edirik, bu qullarınla Arami dilində
danış, biz bu dili başa düşürük, amma divar
üzərindəki xalqın eşitdiyi yerdə bizimlə Yəhudi
dilində danışma».
27 Baş vəzir onlara dedi: «Məgər ağam məni
göndərib ki, bu sözləri təkcə sənin ağana və
sənə söyləyim, yoxsa divar üzərində oturan bu
adamlara? Axı onlar da sizinlə birgə nəcislərini
yeyib sidiklərini içəcəklər».

* **18:21** Yez. 29:6-7

28 Onda baş vəzir durub Yəhudi dilində uca səslə
bağıraraq dedi: «Böyük padşahın – Aşşur padşahının
sözünü eşidin!
29 Padşah belə deyir: "Xizqiya sizi aldatmasın,
sizi mənim əlimdən qurtara bilməyəcək.
30 Qoy Xizqiya sizə ‹Rəbb bizi hökmən
qurtaracaq və bu şəhər Aşşur padşahına təslim
edilməyəcək› deyib Rəbbə arxayın etməsin".
31 Ona qulaq asmayın! Çünki Aşşur padşahı belə
deyir: "Mənimlə sülh bağlayın və yanıma gəlin.
Mən gələnə qədər hər kəs öz üzüm meynəsinin və
əncir ağacının bəhrəsindən yeyib öz quyusunun
suyundan içəcək.
32 Sonra mən gəlib sizi ölkənizə bənzər bir ölkəyə
– buğda, şərab, çörək, üzüm bağları, zeytun yağı və
bal olan bir torpağa aparacağam. Beləcə ölməyib
sağ qalarsınız. ‹Rəbb bizi qurtaracaq› deyib sizi
azdıran Xizqiyaya qulaq asmayın.
33 Millətlərin allahlarından biri öz ölkəsini Aşşur
padşahının əlindən qurtardımı?
34 Hanı Xamatın və Arpadın allahları? Hanı Se-
farvayimin, Henanın və Avvanın allahları? Onlar
Samariyanı mənim əlimdən qurtardılarmı?
35 Bütün bu allahlardan hansı öz ölkəsini mənim
əlimdən qurtardı? Bəs Rəbb necə Yerusəlimi
mənim əlimdən qurtara bilər?"»
36 Xalq susdu və onun cavabında heç nə demədi.
Çünki padşah «ona cavab verməyin» deyə əmr et-
mişdi.
37 Saray rəisi Xilqiya oğlu Elyaqim, mirzə Şevna
və salnaməçi Asəf oğlu Yoah cırılmış paltarlarda
Xizqiyanın yanına gəlib baş vəzirin sözlərini ona
çatdırdılar.

# 19

## *Padşah Xizqiyanın Yeşayadan məsləhət alması (Yeş. 37:1-7)*

1 Padşah Xizqiya bunu eşidəndə paltarını cırdı və
çula bürünüb Rəbbin məbədinə girdi.
2 O, saray rəisi Elyaqimi, mirzə Şevnanı və
kahinlərin ağsaqqallarını çula bürünmüş halda
peyğəmbər Amots oğlu Yeşayanın yanına göndərdi.
3 Onlar Yeşayaya dedilər: «Xizqiya belə deyir:
“Bu gün bəla, təhqir və rüsvayçılıq günüdür, çünki
uşaqların doğulması vaxtı çatıb, ancaq doğmağa güc
yoxdur.
4 Bəlkə ağası Aşşur padşahının var olan Al-
lahı təhqir etməyə göndərdiyi baş vəzirin bütün
sözlərini Allahın Rəbb eşidib buna görə məzəmmət
edər. Ona görə də qalanlar üçün dua et”».
5 Padşah Xizqiyanın adamları Yeşayanın yanına
gələndə
6 Yeşaya onlara dedi: «Ağanıza söyləyin ki, Rəbb
belə deyir: “Aşşur padşahının nökərlərinin Mənə
qarşı küfr edərək söylədiyi və sənin eşitdiyin
sözlərdən qorxma.
7 Mən onun daxilinə elə bir ruh göndərəcəyəm ki,
bir xəbər eşidib öz ölkəsinə qayıdacaq və orada onu
qılıncla öldürtdürəcəyəm”».

## *Aşşur padşahının məktubu (Yeş. 37:8-20)*

8 Baş vəzir geri qayıdıb Aşşur padşahının Livna
üzərinə hücum etdiyini gördü. Çünki Lakişdən geri
çəkildiyini eşitmişdi.

9 Aşşur padşahına «Kuş padşahı Tirhaqa sənin
üstünə vuruşmağa gəlir» xəbəri çatdı. O, Xizqiyanın
yanına yenidən qasidlər göndərib dedi:
10 «Yəhuda padşahı Xizqiyaya belə söyləyin:
"Qoy güvəndiyin Allahın ‹Yerusəlim Aşşur
padşahına təslim edilməyəcək› deyə səni
aldatmasın.
11 Axı sən eşitdin ki, Aşşur padşahları bütün
ölkələrə nə ediblər, oraları necə viran ediblər. Sən
qurtula biləcəksənmi?
12 Atalarımın məhv etdikləri millətlərin –
Qozanın, Xaranın, Resefin və Telassarda olan
Edenlilərin allahları onları qurtardımı?
13 Hanı Xamat padşahı, Arpad padşahı, Sefar-
vayim şəhərinin, Henanın və Avvanın padşahı?"»
14 Xizqiya məktubu qasidlərdən alıb oxudu. O,
Rəbbin məbədinə qalxıb məktubu Rəbbin önündə
yerə sərdi.
15 * Xizqiya Rəbbin önündə dua edib dedi:
«Ey keruvlar üstündə əyləşən İsrailin Allahı Rəbb!
Bütün dünya padşahlıqlarının Allahı yalnız Sənsən.
Göyü və yeri Sən yaratmısan.
16 Ya Rəbb, qulağın eşitsin, gözün görsün, Sanx-
erivin var olan Allaha qarşı küfr edərək göndərdiyi
sözlərə qulaq as.
17 Ya Rəbb, doğrudur, Aşşur padşahları millətləri
və onların torpaqlarını talan etdilər,
18 allahlarını oda atıb məhv etdilər. Çünki on-
lar Allah deyildi, insanlar onları ağac və daşdan
düzəltmişdilər.
19 Ey Allahımız Rəbb, indi isə yalvarıram, bizi
onun əlindən qurtar və bütün dünya padşahlıqları

* **19:15** Çıx. 25:22

bilsinlər ki, ya Rəbb, Sən, yalnız Sən Allahsan!»

### *Aşşurluların məğlubiyyəti barədə Yeşayanın peyğəmbərlik etməsi*
*(Yeş. 37:21-38)*

20 Amots oğlu Yeşaya Xizqiyaya xəbər göndərib
dedi: «İsrailin Allahı Rəbb belə deyir: "Aşşur
padşahı Sanxeriv barədə Mənə etdiyin duanı
eşitdim".
21 Onun haqqında Rəbbin söylədiyi söz budur:
"Bakirə Sion qızı
Sənə xor baxıb lağ edir,
Yerusəlim qızı
Sənin arxanca başını bulayır.
22 Kimi söyüb küfr etdin?
Kimə qarşı səsini qaldırdın?
Kimə lovğalıqla baxdın?
İsrailin Müqəddəsinə!
23 Qasidlərinin vasitəsilə
Rəbbi təhqir edib dedin:
‹Çoxlu döyüş arabalarımla
Dağların zirvəsinə,
Livanın ən uca yerlərinə çıxdım.
Uca sidr ağaclarını,
Gözəl sərv ağaclarını kəsdim,
Ən son məskəninə,
Yaşıl meşələrinə girdim.
24 Quyu qazdım və özgə sularını içdim,
Misirin bütün çaylarını ayağımla qurutdum›.

25 Məgər eşitməmisən ki,
Mən çoxdan bu işi hazırladım,
Qədimdən bəri müəyyən etdiyimi

İndi yerinə yetirirəm ki,
Sən qalalı şəhərləri dağıdıb
Viranəliyə çevirəsən.
26 Bu şəhərlərin sakinləri zəiflədi,
Çaşqınlığa və xəcalətə düşdülər.
Yetişməmişdən əvvəl yandırılan
Çöl otu, göyərti və damda bitən ot kimi oldular.
27 Sənin oturuşunu,
Girişini-çıxışını,
Mənə qarşı hiddətini bilirəm.
28 Mənə qarşı hiddətləndiyinə görə,
Lovğalığın qulağıma çatdığına görə
Halqamı burnuna və yüyənimi ağzına taxacağam,
Səni gəldiyin yolla geri qaytaracağam.

29 Ancaq sənin üçün əlamət budur, ey Xizqiya!
Bu il və gələn il özü yetişən barını,
Üçüncü il isə taxıl zəmilərini,
Üzüm bağları salıb onların bəhrəsini yeyin.
30 Yəhuda nəslindən xilas olub qalanlar
Yenə aşağıya doğru kök atacaqlar,
Yuxarıya doğru bəhrə verəcəklər.
31 Çünki qalanlar Yerusəlimdən,
Xilas olanlar Sion dağından çıxacaqlar.
Rəbbin qeyrəti bunu edəcək".

32 Buna görə Aşşur padşahı barədə Rəbb belə deyir:
"O bu şəhərə girməyəcək,
Oraya ox atmayacaq,
Qarşısına qalxanla çıxmayacaq,
Qala önündə torpaq qalağı qurmayacaq.
33 Ancaq gəldiyi yolla geri qayıdacaq,
Bu şəhərə girməyəcək"

Rəbb belə bəyan edir.
34 “Mən bu şəhəri Özüm üçün,
Qulum Davudun xatirinə qoruyub xilas edəcəyəm”».
35 O gecə Rəbbin mələyi çıxıb Aşşur ordugahında
yüz səksən beş min nəfəri qırdı. Səhər erkən qalxıb
gördülər ki, onların hamısı öldürülüb.
36 Aşşur padşahı Sanxeriv geri çəkilib getdi və
Ninevada qaldı.
37 O öz allahı Nisrokun məbədində səcdə edərkən
oğulları Adrammelek və Şareser onu qılıncla
öldürdülər və Urartu ölkəsinə qaçdılar. Sanxerivin
yerinə oğlu Esar-Xaddon padşah oldu.

# 20

### *Xizqiyanın xəstələnməsi (2Saln. 32:24-26; Yeş. 38:1-8,21-22)*

1 O günlərdə Xizqiya ölümcül xəstələndi.
Peyğəmbər Amots oğlu Yeşaya onun yanına gəlib
dedi: «Rəbb belə deyir: “Evin üçün vəsiyyət et,
çünki xəstəlikdən sağalmayıb öləcəksən”».
2 Xizqiya üzünü divara çevirdi və Rəbbə dua edib
dedi:
3 «Yalvarıram, ya Rəbb, yadına sal ki, necə Sənin
önündə salehliklə və sidq ürəklə davranmışam,
necə Sənin gözündə yaxşı olan işlər etmişəm».
Xizqiya acı-acı ağladı.
4 Yeşaya hələ orta həyətdən çıxmamış ona Rəbbin
bu sözü nazil oldu:
5 «Qayıt, Mənim xalqımın hökmdarı Xizqiyaya
söylə ki, baban Davudun Allahı Rəbb belə deyir:
“Sənin duanı eşitdim, göz yaşlarını gördüm. İndi

Mən səni sağaldıram və üçüncü gün Rəbbin
məbədinə qalxacaqsan.
6 Sənin ömrünü on beş il artırıram. Səni və bu
şəhəri Aşşur padşahının əlindən qurtaracağam, onu
Özüm üçün və qulum Davudun xatirinə qoruya-
cağam"».
7 Sonra Yeşaya «əncir kündəsi götürün» dedi.
Bunu götürüb çibanın üstünə qoydular və padşah
sağaldı.
8 Xizqiya Yeşayaya demişdi: «Rəbbin məni
sağaldacağına və üçüncü gün Rəbbin məbədinə
qalxacağıma əlamət nədir?»
9 Yeşaya dedi: «Söylədiyi sözə əməl edəcəyinə
Rəbbin verdiyi əlamət budur: sənin istəyinə görə
kölgə ya on dərəcə qabağa gedəcək ya da on dərəcə
geri çəkiləcək».
10 Xizqiya dedi: «Kölgə üçün on dərəcə qabağa
getmək asandır. Qoy on dərəcə geri çəkilsin».
11 Peyğəmbər Yeşaya Rəbbi çağırdı, Rəbb də Ax-
azın tikdiyi günəş saatının üstünə düşən kölgəni on
dərəcə geri çəkdi.

### *Xizqiyanın ağılsızlığı*
### *(Yeş. 39:1-8)*

12 O zaman Babil padşahı Baladan oğlu
Merodak-Baladan Xizqiyaya məktublar
və hədiyyələr göndərdi, çünki Xizqiyanın
xəstələndiyini eşitmişdi.
13 Bunlar Xizqiyanı sevindirdi. O, xəzinəsində
olan bütün şeyləri – qızıl-gümüşü, ətriyyatı,
qiymətli yağları, silah anbarını elçilərə göstərdi.
Xizqiyanın sarayında və bütün ölkəsində onlara
göstərmədiyi bir şey qalmadı.

14 Onda Yeşaya peyğəmbər padşah Xizqiyanın
yanına gəlib ona dedi: «Bu adamlar nə dedilər?
Sənin yanına haradan gəldilər?» Xizqiya dedi:
«Uzaq bir ölkədən – Babildən gəldilər».
15 Yeşaya dedi: «Sənin sarayında nə gördülər?»
Xizqiya dedi: «Sarayımda olan bütün şeyləri
gördülər. Xəzinəmdə onlara göstərmədiyim bir
şey qalmadı».
16 Yeşaya Xizqiyaya dedi: «Rəbbin sözünü dinlə:
17 * “Bir gün gələcək ki, sənin sarayında olan hər
şey və atalarının bu günə qədər yığdıqları şeylər
Babilə aparılacaq, heç nə qalmayacaq” deyir Rəbb.
18 * “Sənin nəslindən olan və səndən törəyən
bəzi oğullarını götürüb aparacaqlar və onlar Babil
padşahının sarayında hərəmağası olacaq”».
19 Xizqiya Yeşayaya dedi: «Söylədiyin Rəbbin
sözü yaxşı sözdür». Sonra dedi: «Heç olmasa
mənim dövrümdə sülh və əmin-amanlıq olacaq. Bu,
yaxşı deyilmi?»
20 Xizqiyanın qalan işləri, onun bütün hünəri,
hovuz və su kəməri düzəldib suyu necə şəhərə
gətirməsi barədə Yəhuda padşahlarının salnamələr
kitabında yazılmışdır.
21 Xizqiya ataları ilə uyudu və yerinə oğlu
Menaşşe padşah oldu.

# 21

### *Yəhuda padşahı Menaşşe (2Saln. 33:1-20)*

---

* **20:17** 2Pad. 24:13; 2Saln. 36:10 * **20:18** 2Pad. 24:10-16; Dan. 1:1-7

1 Menaşşe padşah olduğu vaxt on iki yaşında idi
və Yerusəlimdə əlli beş il padşahlıq etdi. Anasının
adı Xefsivah idi.
2 * O, İsrail övladlarının önündən Rəbbin qov-
duğu millətlərin etdikləri iyrənc işlər kimi Rəbbin
gözündə pis olan işlər etdi.
3 Atası Xizqiyanın dağıtdığı səcdəgahları
yenidən tikdi. İsrail padşahı Axav kimi Baal bütü
üçün qurbangahlar qurdu və Aşera bütü düzəltdi,
bütün səma cisimlərinə səcdə və qulluq etdi.
4 * Rəbbin «adımı Yerusəlimdə qoyacağam»
dediyi məbədində Menaşşe qurbangahlar tikməyə
başladı.
5 Rəbbin məbədinin hər iki həyatində bütün səma
cisimlərinə qurbangahlar düzəltdi.
6 O, oğlunu oda qurban verdi, gələcəyi dedi,
baxıcılıq edib cindarlara və ruhçağıranlara
müraciət etdi. Beləliklə, Rəbbin gözündə çoxlu
pis işlər görərək Onu qəzəbləndirdi.
7 * Düzəltdiyi oyma Aşera bütünü məbədə qoydu.
Rəbb Davuda və oğlu Süleymana demişdi: «Bu
məbəddə və bütün İsrail qəbilələrindən seçdiyim
Yerusəlimdə Öz adımı əbədi qoyacağam.
8 Əgər Mənim onlara buyurduqlarıma və qulum
Musanın onlara əmr etdiyi bütün Qanuna əməl
etsələr, İsrailliləri atalarına verdiyim torpaqdan
didərgin düşməyə qoymayacağam».
9 Ancaq onlar bu sözlərə qulaq asmadılar.
İsrail övladlarının önündə Rəbbin məhv etdiyi
millətlərdən də çox pis işlər etmək üçün Menaşşe

* **21:2** Yer. 15:4 * **21:4** 2Şam. 7:13 * **21:7** 1Pad. 9:3-5; 2Saln. 7:12-18

onları yoldan çıxartdı.
10 Rəbb Öz qulları peyğəmbərlər vasitəsilə dedi:
11 «Yəhuda padşahı Menaşşe bu iyrənc
işləri etməklə özündən əvvəlki Emorluların
etdiklərindən də çox pislik etdi və bütləri ilə
Yəhudalılara da günah etdirdi.
12 Buna görə də İsrailin Allahı Rəbb belə deyir:
"Mən Yerusəlimin və Yəhudanın üzərinə elə
bir bəla gətirəcəyəm ki, bunu eşidən hər kəsin
qulaqları cingildəyəcək.
13 Samariyanı ölçdüyüm ipi və Axav nəslinin
üstünə çəkdiyim şaqulu Yerusəlimin üzərinə də
çəkəcəyəm. Bir nəfər boşqabı necə silib üzüstə
çevirirsə, Mən də Yerusəlimi elə siləcəyəm.
14 İrsimin qalanlarından üz döndərəcəyəm, onları
düşmənlərinə təslim edəcəyəm və düşmənləri onları soyub talan edəcək.
15 Çünki gözümdə pis olan işlər edirdilər və ataları Misirdən çıxdıqları gündən bu günə qədər Məni
qəzəbləndirirdilər"».
16 Menaşşe Rəbbin gözündə pis olan işlər
edərək Yəhudalılara etdirdiyi günahdan başqa çoxlu
günahsız qan töküb Yerusəlimi başdan-başa qana
buladı.
17 Menaşşenin qalan işləri, etdiyi hər şey və
elədiyi günah barədə Yəhuda padşahlarının salnamələr kitabında yazılmışdır.
18 Menaşşe ataları ilə uyudu və öz sarayının
bağçasında – Uzza bağçasında basdırıldı. Onun
yerinə oğlu Amon padşah oldu.

### *Yəhuda padşahı Amon (2Saln. 33:21-25)*

19 Amon padşah olduğu vaxt iyirmi iki yaşında idi
və Yerusəlimdə iki il padşahlıq etdi. Anası Yotvalı
Xarusun qızı olub adı Meşullemet idi.
20 O, atası Menaşşenin etdiyi kimi Rəbbin
gözündə pis olan işlər etdi.
21 Atasının yolu ilə gedib onun qulluq etdiyi
bütlərə səcdə və qulluq etdi.
22 Atalarının Allahı Rəbbi tərk etdi və Rəbbin
yolu ilə getmədi.
23 Amonun əyanları ona qəsd hazırladılar və
padşahı sarayında öldürdülər.
24 Ölkə xalqı padşah Amona qəsd hazırlayanların
hamısını qırdı və onun yerinə oğlu Yoşiyanı padşah
etdi.
25 Amonun qalan işləri barədə Yəhuda
padşahlarının salnamələr kitabında yazılmışdır.
26 O, Uzza bağçasında, öz qəbrində basdırıldı.
Onun yerinə oğlu Yoşiya padşah oldu.

# 22

### *Yəhuda padşahı Yoşiya (2Saln. 34:1-2)*

1 * Yoşiya padşah olduğu vaxt səkkiz yaşında idi
və Yerusəlimdə otuz bir il padşahlıq etdi. Anası
Bosqatlı Adayanın qızı olub adı Yedida idi.
2 O, Rəbbin gözündə doğru olan işlər etdi, hər işdə
babası Davudun yolu ilə gedərək ondan kənara
çıxmadı.

### *Məbəddə Qanun kitabının tapılması (2Saln. 34:8-28)*

* **22:1** Yer. 3:6

3 Yoşiyanın padşahlığının on səkkizinci ilində
padşah mirzə Meşullam oğlu Asalya oğlu Şafanı
Rəbbin məbədinə göndərib dedi:
4 «Baş kahin Xilqiyanın yanına get. Qoy o, astana
keşikçilərinin xalqdan yığdıqları Rəbbin məbədinə
gətirilən pulu tərəzidə çəksin.
5 Onu Rəbbin məbədinin işinə nəzarət edənlərə
versinlər. Onlar da pulu məbədin uçuq yerlərini
təmir etmək üçün Rəbbin məbədində olan işçilərə
–
6 dülgərlərə, ustalara, bənnalara, məbədi təmir
etmək üçün taxta və yonulmuş daş alanlara
versinlər.
7 Ancaq əllərinə verilən pulun hesabı onlarla
aparılmasın, çünki sədaqətlə çalışırlar».
8 Baş kahin Xilqiya mirzə Şafana dedi: «Rəbbin
məbədində Qanun kitabını tapdım». Xilqiya kitabı
Şafana verdi və Şafan onu oxudu.
9 Mirzə Şafan padşahın yanına gəldi və ona
xəbər gətirib dedi: «Qulların məbəddə tapılan pulu
boşaltdılar və onu Rəbbin məbədinin işinə nəzarət
edənlərə verdilər».
10 Mirzə Şafan padşaha bildirib dedi: «Kahin
Xilqiya mənə bir kitab verdi». Şafan onu padşahın
önündə oxudu.
11 Padşah Qanun kitabının sözlərini eşidəndə pal-
tarını cırdı.
12 Padşah kahin Xilqiyaya, Şafan oğlu Axiqama,
Mikeya oğlu Akbora, mirzə Şafana və padşahın
xidmətçisi Asayaya əmr edib dedi:
13 «Gedin, tapılmış bu kitabın sözlərinə görə
mənim üçün, xalq və bütün Yəhuda üçün Rəbdən
soruşun, çünki Rəbbin bizə qarşı alovlanmış qəzəbi
böyükdür. Ona görə ki atalarımız bu kitabın

sözlərinə qulaq asmamışdı və orada bizim üçün
yazılmış bu şeylərə əməl etməmişdi».
14 Kahin Xilqiya, Axiqam, Akbor, Şafan və Asaya
qadın peyğəmbər Xuldanın yanına getdilər. O, pal-
tarlara baxan Harhas oğlu Tiqva oğlu Şallumun ar-
vadı idi və Yerusəlimdə ikinci məhəllədə yaşayırdı.
Onunla söhbət etdilər.
15 Qadın onlara dedi: «İsrailin Allahı Rəbb deyir:
sizi Mənim yanıma göndərən adama söyləyin ki,
16 Rəbb belə deyir: "Mən Yəhuda padşahının
oxuduğu kitabdakı bütün sözlərə görə bu yerə və
burada yaşayanların üzərinə bəla gətirəcəyəm.
17 Onlar Məni tərk etdilər və başqa allahlara
buxur yandıraraq bütün əməlləri ilə Məni
qəzəbləndirdilər. Buna görə də bu yerə qarşı
qəzəbim alovlanacaq və sönməyəcək".
18 Ancaq Rəbdən soruşmaq üçün sizi göndərən
Yəhuda padşahına söyləyin ki, İsrailin Allahı Rəbb
belə deyir: "Sözlərimi dinlədin.
19 Mənim bu yer və orada yaşayanlar barədə
‹viranəlik və lənət olsun› deyə söylədiyim sözü
eşidəndə ürəyin yumşaldı və Rəbbin önündə özünü
aşağı tutdun, paltarını cırıb önümdə ağladın. Buna
görə də Mən səni eşitdim" belə deyir Rəbb.
20 "Bundan ötrü Mən səni atalarına qoşacağam,
rahatlıqla öz qəbrinə qoyulacaqsan və bu
yerin üzərinə gətirəcəyim bütün bəlanı gözlərin
görməyəcək"». Onlar bu xəbəri padşaha çatdırdılar.

# 23

*Padşah və xalqın Rəbb ilə əhd bağlaması*
*(2Saln. 34:3-7,29-30)*

1 Padşah Yəhuda və Yerusəlimin bütün
ağsaqqallarını çağırtdırıb öz yanına topladı.
2 Padşah, onunla birgə bütün Yəhuda adamları,
Yerusəlimdə yaşayanların hamısı, kahinlər,
peyğəmbərlər və böyükdən kiçiyə qədər bütün xalq
Rəbbin məbədinə qalxdı. O, Rəbbin məbədində
tapılmış Əhd kitabının bütün sözlərini onlara
eşitdirərək oxudu.
3 Padşah sütunun yanında dayandı. O, Rəbbin
önündə əhd bağladı ki, Rəbbin ardınca gedib Onun
əmrlərinə, göstərişlərinə, qaydalarına bütün qəlbi,
bütün varlığı ilə əməl etsin və bu kitabda yazılmış
əhdin sözlərini yerinə yetirsin. Bütün xalq da
onunla birgə əhd bağladı.

### *Yoşiyanın bütpərəstliyi aradan qaldırması*

4 * Padşah baş kahin Xilqiyaya, müavin kahinlərə
və astana keşikçilərinə əmr etdi ki, Baal, Aşera
və bütün səma cisimləri üçün düzəldilmiş şeylərin
hamısını Rəbbin məbədindən çıxarsınlar. Onları
Yerusəlimin kənarında olan Qidron vadisindəki
tarlalarda yandırdı və küllərini Bet-Elə apardı.
5 O, Yəhuda şəhərlərində və Yerusəlimin ətrafında
olan səcdəgahlarda buxur yandırmaq üçün Yəhuda
padşahlarının qoyduqları kahinləri və Baala,
günəşə, aya, bürclərə, bütün səma cisimlərinə
buxur yandıranları işdən kənar etdi.
6 Aşera bütünü Rəbbin məbədindən Yerusəlimin
kənarına, Qidron vadisinə çıxartdı. Onu Qidron
vadisində yandırdı, əzib toz etdi və tozunu adi
adamların qəbirləri üstünə səpələyib murdarladı.

---

* **23:4** 2Pad. 21:3; 2Saln. 33:3

7 Rəbbin məbədində məbəd fahişəliyi ilə məşğul
olan kişilərin evlərini dağıtdı. Qadınlar orada Aşera
üçün çadırlar toxuyurdular.
8 Yoşiya Yəhuda şəhərlərindən bütün kahinləri
gətirtdi, Gevadan Beer-Şevaya qədər bu kahinlərin
buxur yandırdıqları səcdəgahları murdar etdi.
Şəhər rəisi Yeşuanın darvazasının girəcək yerində,
sol tərəfdə olan şəhər darvazasındakı səcdəgahları
dağıtdı.
9 Lakin səcdəgahların kahinləri Yerusəlimdə
Rəbbin qurbangahına qalxmırdılar, amma qar-
daşları ilə birlikdə mayasız çörək yeyirdilər.
10 * * Yoşiya Ben-Hinnom vadisində olan Tofeti
murdar etdi ki, heç kəs oğlunu ya qızını Molek üçün
oda qurban verməsin.
11 O, Rəbbin məbədinə, saray xidmətçisi Natan-
Melekin həyətdə olan otağına Yəhuda padşahlarının
günəşə həsr etdikləri atların gətirilməsinə son
qoydu və günəş arabalarını odda yandırdı.
12 * Axazın yuxarı otağının damında Yəhuda
padşahlarının düzəltdiyi qurbangahları və Rəbbin
məbədinin iki həyətində Menaşşenin düzəltdiyi
qurbangahları da padşah dağıtdı. Onları orada
qırıb əzdi və tozlarını Qidron vadisinə səpələdi.
13 * Yerusəlimin şərq tərəfində, Həlak dağının
cənub tərəfində Sidonluların iyrənc bütü Aştoret,
Moavlıların iyrənc bütü Kemoş və Ammonluların
iyrənc bütü Milkom üçün İsrail padşahı Süleymanın
düzəltdiyi səcdəgahları padşah murdar etdi.
14 O, sütunları parça-parça etdi, Aşera bütlərini

* **23:10** Lev. 18:21 * **23:10** Yer. 7:31; 19:1-6; 32:35 * **23:12** 2Pad. 21:5; 2Saln. 33:5 * **23:13** 1Pad. 11:7

kəsdi və onların yerlərini insan sümükləri ilə doldurdu.
15 * Həmçinin Bet-Eldə olan qurbangahı və İsrailə
günah etdirmiş Nevat oğlu Yarovamın düzəltdiyi səcdəgahı dağıtdı. O, səcdəgahı yandırdı və əzib toz etdi, Aşera bütününü də yandırdı.
16 * Yoşiya dönüb qarşısındakı dağda olan
qəbirləri gördü və sümükləri qəbirlərdən götürtdü. Bu işləri qabaqcadan söyləyən Allah adamının dediyi Rəbbin sözünə görə onları qurbangah üzərində yandırıb onu murdar etdi.
17 * Yoşiya dedi: «Orada gördüyüm abidə nədir?»
Şəhərin adamları ona dedilər: «Yəhudadan gələn Allah adamının qəbridir. O, Bet-El qurbangahına qarşı sənin etdiyin bu işləri qabaqcadan söyləmişdi».
18 O dedi: «Ona toxunmayın, heç kəs onun
sümüklərini narahat etməsin». Onun və Samariyadan gələn peyğəmbərin sümüklərinə toxunmadılar.
19 Yoşiya Samariya şəhərlərində olan bütün
səcdəgahlardakı məbədləri aradan qaldırdı. İsrail padşahları bu məbədləri tikib Rəbbi qəzəbləndirmişdilər. O, Bet-Eldə etdiyi bütün işləri bu yerlərdə də etdi.
20 Yoşiya qurbangahların üstündə həmin
səcdəgahlardakı bütün kahinləri qurban gətirdi və insan sümükləri yandırdı. Sonra Yerusəlimə qayıtdı.

---

* **23:15** 1Pad. 12:33 * **23:16** 1Pad. 13:2 * **23:17** 1Pad. 13:30-32

### *Yoşiyanın Pasxa bayramını keçirməsi (2Saln. 35:1-19)*

21 Padşah bütün xalqa əmr edib dedi: «Bu
Əhd kitabında yazıldığına görə Allahınız Rəbb üçün
Pasxa bayramını keçirin».
22 İsrailə hökm edən hakimlərin dövründən bəri,
İsrail və Yəhuda padşahlarının bütün dövrü boyu
Pasxa bayramı belə keçirilməmişdi.
23 Ancaq Yoşiyanın padşahlığının on səkkizinci
ilində bu Pasxa Rəbb üçün Yerusəlimdə keçirildi.
24 Bundan başqa, Yoşiya Rəbbin məbədində
kahin Xilqiyanın tapdığı kitabda yazılan Qanunun
sözlərinə əməl edərək cindarları və ruhçağıranları,
ev bütlərini və başqa bütləri – Yəhuda ölkəsində və
Yerusəlimdə gözünə dəyən bütün mənfur şeyləri
məhv etdi.
25 Musanın bütün Qanununa görə bütün qəlbi,
bütün varlığı, bütün gücü ilə onun kimi Rəbbə üz
tutan bir padşah nə ondan əvvəl, nə də ondan sonra
oldu.
26 Ancaq Menaşşenin Rəbbi qəzəbləndirmək
üçün etdiyi bütün əməllərindən ötrü Rəbb
Yəhudalılara qarşı alovlanan böyük qəzəbindən
dönmədi.
27 Rəbb dedi: «İsrailliləri gözümün önündən rədd
etdiyim kimi Yəhudalıları da rədd edəcəyəm,
seçdiyim şəhər Yerusəlimdən və “adım orada
olacaq” dediyim məbəddən üz döndərəcəyəm».

### *Yoşiyanın ölümü (2Saln. 35:20-36:1)*

28 Yoşiyanın qalan işləri və etdiyi hər şey
barədə Yəhuda padşahlarının salnamələr kitabında
yazılmışdır.

29 * Onun dövründə Misir padşahı firon Neko
Fərat çayına tərəf Aşşur padşahının üstünə hücum
etmək istədi. Padşah Yoşiya onunla qarşılaşmağa
çıxdı. Firon Neko Yoşiya ilə Megiddoda qarşılaşıb
onu öldürdü.
30 Adamları onun cəsədini Megiddodan götürüb
araba ilə Yerusəlimə gətirdilər və öz qəbrində
basdırdılar. Ölkə xalqı Yoşiyanın oğlu Yehoaxazı
götürüb məsh etdi və onu atasının yerinə padşah
etdi.

### *Yəhuda padşahı Yehoaxaz (2Saln. 36:2-4)*

31 Yehoaxaz padşah olduğu vaxt iyirmi üç
yaşında idi və Yerusəlimdə üç ay padşahlıq etdi.
Anası Livnalı Yeremyanın qızı olub adı Xamutal
idi.
32 O, atalarının etdiyi kimi Rəbbin gözündə pis
olan işlər etdi.
33 Firon Neko Xamat torpağındakı Rivlada onu
əsir aldı ki, Yerusəlimdə padşahlıq edə bilməsin.
O, ölkə üzərinə bir talant qızıl və yüz talant gümüş
miqdarında xərac qoydu.
34 * Firon Neko Yoşiyanın oğlu Elyaqimi atası
Yoşiyanın yerinə padşah etdi və onun adını
dəyişdirib Yehoyaqim qoydu. Yehoaxazı isə
götürüb apardı. Yehoaxaz Misirə gəlib orada
öldü.
35 Yehoyaqim firona qızıl-gümüş verdi və firo-
nun istədiyi qədər gümüş vermək üçün ölkə üzərinə
vergi qoydu. O, firon Nekoya vermək üçün ölkə

* **23:29** Zək. 12:11; Vəhy 16:16 * **23:34** Yer. 22:11-12

xalqından hər kəsə təyin olunmuş məbləğə görə qızıl-gümüş alırdı.

### *Yəhuda padşahı Yehoyaqim (2Saln. 36:5-8)*

36 * Yehoyaqim padşah olduğu vaxt iyirmi beş
yaşında idi və Yerusəlimdə on bir il padşahlıq etdi.
Anası Rumalı Pedayanın qızı olub adı Zevida idi.
37 O, atalarının etdiyi kimi Rəbbin gözündə pis
olan işlər etdi.

## 24

1 * Yehoyaqimin dövründə Babil padşahı Navux-
odonosor onun üzərinə hücum etdi. Yehoyaqim üç
il ona tabe oldu, amma sonra ona qulluq etməkdən
boyun qaçırdı.
2 Xaldeylilərin, Aramlıların, Moavlıların və Am-
monluların qoşunlarını Rəbb ona qarşı göndərdi;
Rəbbin Öz qulları peyğəmbərlər vasitəsilə söylədiyi
sözünə görə Yəhudanı məhv etmək üçün onun
üzərinə göndərdi.
3 Həqiqətən, Rəbbin sözünə görə Yəhudanın
başına bu iş gəldi ki, Menaşşenin etdiyi bütün
günahlardan ötrü Rəbb onları hüzurundan rədd
etsin.
4 Çünki onun günahsız qan töküb Yerusəlimi
qanla doldurmasını Rəbb bağışlamaq istəmədi.
5 Yehoyaqimin qalan işləri və etdiyi hər şey
barədə Yəhuda padşahlarının salnamələr kitabında
yazılmışdır.

---

* **23:36** Yer. 22:18-19; 26:1-6; 35:1-19 * **24:1** Yer. 25:1-38; Dan. 1:1-2

6 Yehoyaqim ataları ilə uyudu və yerinə oğlu
Yehoyakin padşah oldu.
7 Misir padşahı bir daha öz ölkəsindən kənara
çıxmadı, çünki Misir vadisindən Fərat çayına qədər
Misir padşahının əvvəllər işğal etdiyi hər yeri Babil
padşahı tutmuşdu.

### *Yəhuda padşahı Yehoyakin (2Saln. 36:9-10)*

8 Yehoyakin padşah olduğu vaxt on səkkiz
yaşında idi və Yerusəlimdə üç ay padşahlıq etdi.
Anası Yerusəlimli Elnatanın qızı olub adı Nexuşta
idi.
9 Yehoyakin atasının etdiyi kimi Rəbbin gözündə
pis olan işlər etdi.
10 O zaman Babil padşahı Navuxodonosorun
qoşunları Yerusəlimə yaxınlaşdı. Şəhər mühasirəyə
alındı.
11 Qoşunlar şəhəri mühasirəyə alanda Babil
padşahı Navuxodonosor onun ətrafına gəldi.
12 * Yəhuda padşahı Yehoyakin anası, əyanları,
rəisləri və saray xidmətçiləri ilə birlikdə Babil
padşahına təslim oldu. Padşahlığının səkkizinci
ilində Babil padşahı onu əsir aldı.
13 Rəbbin söylədiyi kimi Rəbbin məbədinin və
sarayın xəzinələrini oradan çıxartdı. İsrail padşahı
Süleymanın Rəbbin məbədi üçün düzəltdiyi bütün
qızıl şeyləri parça-parça etdi.
14 O bütün Yerusəlimliləri, bütün rəisləri, igid
adamların hamısını – cəmi on min nəfəri və bütün
ustalarla sənətkarları sürgün etdi. Ölkədə yoxsul
xalqdan başqa heç kəs qalmadı.

---

* **24:12** Yer. 22:24-30; 24:1-10; 29:1-2

15 * Yehoyakini də Babilə sürgün etdi. Padşahın
anasını, arvadlarını, saray xidmətçilərini və
ölkənin adlı-sanlı adamlarını Yerusəlimdən sürgün
edib Babilə apardı.
16 Babil padşahı sayı yeddi min nəfər olan
bütün döyüşçüləri, min nəfər ustanı və sənətkarı –
müharibədə iş görən bütün bacarıqlı adamları əsir
edib Babilə gətirdi.
17 * Babil padşahı Yehoyakinin yerinə əmisi Mat-
tanyanı padşah etdi və onun adını dəyişib Sidqiya
qoydu.

### *Yəhudanın son padşahı Sidqiya*
### *(2Saln. 36:11-12; Yer. 52:1-3)*

18 * Sidqiya padşah olduğu vaxt iyirmi bir
yaşında idi və Yerusəlimdə on bir il padşahlıq etdi.
Anası Livnalı Yeremyanın qızı olub adı Xamutal
idi.
19 O, Yehoyaqimin etdiyi kimi Rəbbin gözündə
pis olan işlər etdi.
20 * Həqiqətən, Rəbbin qəzəbinə görə Yerusəlimin
və Yəhudanın başına bu iş gəldi və Rəbb onları
hüzurundan kənar etdi.

### *Yerusəlimin süqutu*
### *(2Saln. 36:13-21; Yer. 52:3-33)*

Sidqiya Babil padşahına qarşı üsyan etdi.

# 25

1 * Onun padşahlığının doqquzuncu ilində,
onuncu ayın onuncu günü Babil padşahı

* **24:15** Yez. 17:12 * **24:17** Yer. 37:1; Yez. 17:13 * **24:18** Yer. 27:1-22; 28:1-17 * **24:20** Yez. 17:15 * **25:1** Yer. 21:1-10; 34:1-5; Yez. 24:2

Navuxodonosor bütün ordusu ilə Yerusəlimin üzərinə hücum etdi, oraya qarşı ordugah qurdu və ətrafında mühasirə divarları düzəltdi.
2 Padşah Sidqiyanın hakimiyyətinin on birinci ilinə qədər şəhər mühasirədə qaldı.
3 Dördüncü ayın doqquzuncu günü şəhərdə aclıq elə gücləndi ki, ölkə xalqının yeməyə çörəyi qalmadı.
4 * Həmin vaxt şəhərin divarlarında dəlik açıldı. Gecə ikən Xaldeylilər şəhərin ətrafında olanda padşah və bütün döyüşçülər padşah bağçasının yanında olan iki divar arasındakı darvazadan çıxıb Arava yolu ilə getdilər.
5 Ancaq Xaldeylilərin qoşunu padşahı təqib etdi və Yerixo düzənliklərində ona çatdı. Padşahın ordusu onu tərk edib dağılmışdı.
6 Padşahı tutub Rivlaya, Babil padşahının yanına apardılar və onun haqqında hökm verdilər.
7 * Sidqiyanın oğullarını gözü qabağında öldürdülər, özünün isə gözlərini çıxartdılar və qandallayıb Babilə apardılar.
8 Babil padşahı Navuxodonosorun padşahlığının on doqquzuncu ilində, beşinci ayın yeddinci günü Babil padşahının əyanı olan mühafizəçilər rəisi Nevuzaradan Yerusəlimə gəldi.
9 O, Rəbbin məbədinə, padşah sarayına, Yerusəlimdəki bütün evlərə od vurub bütün əsas binaları yandırdı.
10 Mühafizəçilər rəisi ilə birgə gələn bütün Xaldey ordusu Yerusəlimin ətrafındakı divarları uçurtdu.
11 Mühafizəçilər rəisi Nevuzaradan şəhərdə qalan xalqı, Babil padşahının tərəfinə keçən fərariləri və

* **25:4** Yez. 33:21 * **25:7** Yez. 12:13

başqa əhalini sürgün etdi.
12 Ancaq o, bağçılıq və əkinçilik etmək üçün
ölkədəki yoxsulların bir hissəsini orada saxladı.
13 * * Xaldeylilər Rəbbin məbədində olan tunc
sütunları, dayaqları və tunc hovuzu parçalayıb
tunclarını Babilə apardılar.
14 * İbadət zamanı işlədilən qazanları, kürəkləri,
maqqaşları, nimçələri və bütün tunc qabları
götürüb apardılar.
15 Mühafizəçilər rəisi xalis qızıldan və gümüşdən
olan bütün şeyləri – buxurdanları və piyalələri
götürdü.
16 Rəbbin məbədi üçün Süleymanın düzəltdiyi iki
sütunda, hovuzda və dayaqlarda olan bütün tun-
cun ağırlığı hesaba gəlməzdi.
17 Bir sütunun hündürlüyü on səkkiz qulac idi və
üzərində tunc başlıq var idi. Başlığın hündürlüyü
üç qulac idi. Bu başlığın ətrafında hörmə tor və
narlar var idi. Hər şey tuncdan düzəldilmişdi. O
biri sütun da hörmə torla birgə bu cür idi.
18 Mühafizəçilər rəisi başçı kahin Serayanı, başçı
kahinin müavini Sefanyanı və üç astana keşikçisini
əsir aldı.
19 Şəhərdə qalan döyüşçülərin sərkərdəsini,
padşahın məsləhətçilərindən şəhərdə olan beş
nəfəri, ölkə xalqını orduya yazan sərkərdənin
mirzəsini və ölkə xalqından şəhərdə qalan altmış
nəfəri əsir tutdu.
20 Mühafizəçilər rəisi Nevuzaradan onları
götürüb Rivlaya, Babil padşahının yanına apardı.

* **25:13** 1Pad. 7:15-22; 2Saln. 3:15-17 * **25:13** 1Pad. 7:23-26; 2Saln. 4:2-5 * **25:14** 1Pad. 7:45; 2Saln. 4:16

21 Babil padşahı Xamat torpağında olan Rivlada
onları öldürdü. Beləcə Yəhuda xalqı öz ölkəsindən
sürgün olundu.

### *Yəhuda valisi Gedalya*
### *(Yer. 40:7-9; 41:1-3)*

22 * Yəhuda ölkəsində Babil padşahı Navux-
odonosorun toxunmadığı qalan xalqa gəlincə,
padşah Şafan oğlu Axiqam oğlu Gedalyanı onların
üzərində vali qoydu.
23 Babil padşahının Gedalyanı vali qoyduğunu
eşitdikdə bütün qoşun başçıları və onların adamları
– Netanya oğlu İsmail, Qareah oğlu Yoxanan,
Netofalı Tanxumet oğlu Seraya, bir Maakalının
oğlu Yaazanya və onların döyüşçüləri Mispaya,
Gedalyanın yanına gəldilər.
24 Gedalya onların özlərinə və adamlarına and
içib dedi: «Xaldeylilərdən qorxmayın. Ölkədə qalıb
Babil padşahına qulluq edin. Belə etsəniz, sizin
üçün yaxşı olar».
25 * Yeddinci ayda padşah nəslindən olan Elişama
oğlu Netanya oğlu İsmail on nəfərlə birgə gəlib
Gedalyanı öldürdü. Onlar Mispada Gedalyanın
yanında olan Yəhudalıları və Xaldeyliləri də
öldürdülər.
26 * Böyükdən kiçiyə qədər bütün xalq və qoşun
başçıları qalxıb Misirə qaçdı, çünki Xaldeylilərdən
qorxurdular.

### *Yehoyakinin azad edilməsi*
### *(Yer. 52:31-34)*

---

* **25:22** Yer. 40:7-9 * **25:25** Yer. 41:1-3 * **25:26** Yer. 43:5-7

27 Yəhuda padşahı Yehoyakinin sürgündə
olmasının otuz yeddinci ilində Evil-Merodak Babil
padşahı oldu. Həmin ilin on ikinci ayının iyirmi
yeddinci günü Evil-Merodak Yəhuda padşahı
Yehoyakinə mərhəmət göstərərək onu zindandan
azad etdi.
28 Onunla mehribanlıqla söhbət etdi və onun
üçün özü ilə birgə Babildə olan padşahların taxt-
larından yuxarı bir taxt qoydurdu.
29 Yehoyakin həbsxana paltarlarını əynindən
çıxartdı. O yaşadığı müddətdə padşahın süfrəsində
yemək yeyərdi.
30 Bütün ömrü boyu ona padşah tərəfindən
gündəlik azuqə verilirdi.

# Azərbaycan dilində Müqəddəs Kitab
## The Holy Bible in the Azerbaijani language, also known as the Azeri language, of Azerbaijan, Iran, Iraq, Syria, and Turkey

Copyright © 2008 Müqəddəs Kitab Sirkəti

Language: Azeri (Azerbaijani, South)

Translation by: Institute for Bible Translation

Contributor: Bible Society of Azerbaijan

This translation text is made available to you under the terms of the Creative Commons License: Attribution-Noncommercial-No Derivative Works. (http://creativecommons.org/licenses/by-nc-nd/3.0/) In addition, you have permission to port the text to different file formats, as long as you do not change any of the text or punctuation of the Bible.

You may share, copy, distribute, transmit, and extract portions or quotations from this work, provided that you include the above copyright information:

You must give Attribution to the work.

You do not sell this work for a profit.

You do not make any derivative works that change any of the actual words or punctuation of the Scriptures.

Permissions beyond the scope of this license may be available if you contact us with your request.

This translation is made available to you under the terms of the Creative Commons Attribution-Noncommercial-No Derivatives license 4.0.

You may share and redistribute this Bible translation or extracts from it in any format, provided that:

You include the above copyright and source information.

You do not sell this work for a profit.

You do not change any of the words or punctuation of the Scriptures.

Pictures included with Scriptures and other documents on this site are licensed just for use with those Scriptures and documents. For other uses, please contact the respective copyright owners.

2018-11-09

---

PDF generated using Haiola and XeLaTeX on 18 Apr 2025 from source files dated 31 Aug 2023
5d1dd449-0589-5c75-ab0e-6b96786f2985